# Bakıda "NATO günləri" başladı



**Müdafiə Nazirliyi ilə NATO arasında 2022-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Bakıda "NATO günləri"nə start verilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

"NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Qüvvələrin Avropada Baş Qərargah rəisinin müavini kontr-admiral Qunnşteyn Brusdalın başçılıq etdiyi nümayəndə heyətinin bir sıra görüşləri nəzərdə tutulub.

Noyabrın 25-dək keçiriləcək "NATO günləri" çərçivəsində müxtəlif mövzularda brifinqlər təqdim olunacaq.

# Azərbaycanda 50 nəfər siyasi partiya təsis edə biləcək

"Siyasi partiyalar haqqında" qanun layihəsinin yenilənmiş variantı təqdim olundu

**Müzakirə mərhələsində olan "Siyasi partiyalar haqqında" qanun layihəsinə edilən redaktələr ictimaiyyətə açıqlanıb.**

Partiyalardan gələn etirazlar nəzərə alınaraq bir sıra maddələrdə dəyişikliklər edilib. Məsələn, siyasi partiya Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaşı (təsisçilər) tərəfindən təsis ediləcək.

(səh.3)

№ 212 (5733), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 noyabr 2022-ci il (çərşənbə axşamı)



# Proqnoz verildi

Rusiya-Ukrayna savaşının bitmə tarixi bəlli oldu

**Amerikanın "Wall Street Journal"ı "Ukraynanın Xerson qələbəsi Rusiya ilə bütün cəbhələrdə dinamikanı dəyişdirir" başlıqlı xəbər dərc edib. Qəzetin yazdığına görə, Xersonun qələbəsi hətta uzaq cəbhələrdə də əks-səda verib.**

Moskva artıq öz qoşunlarını yerləşdirir. Ukraynalılar isə üstünlüyünü genişləndirmək üçün yollar axtarır. Rusiyanın doqquz ayda işğal edə biləcəyi yeganə regional paytaxt Xersondan biabırçı şəkildə geri çəkilməli olduğunu xatırladan nəşr xəbər verir ki, Moskva Ukraynanın cənubundakı digər bölgələrə ən yaxşı qoşunlarını köçürüb. Təxminən 20 min əsgər başqa cəbhələrə göndərilsə də, onları "qismən səfərbərliyə" çağırılan və bir neçə həftəlik təlim keçən yeni çağırışçılar əvəz edib.

(səh.3)



# Regionun parlayan ulduzu

Türkiyə Prezidenti: "Azərbaycan bütün türk dünyası üçün ilham mənbəyinə çevrilib"

**"Torpaqlarını işğaldan azad etmiş, regionun parlayan ulduzu olan Azərbaycan bu gün bütün türk dünyası üçün ilham mənbəyinə çevrilib".**

"Anadolu" Agentliyi xəbər verir ki, bu fikirlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hakim Yeni Azərbaycan Partiyasının (YAP) 30 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti, YAP sədri İlham Əliyevə ünvanladığı təbrik məktubunda əksini tapıb.

O qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasında müstəsna bağlara söykənən və Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyəyə çatan əməkdaşlığın gələcəkdə də davam edəcəyinə tam əmindir.

"YAP-ın qarşıdakı vaxtda da Azərbaycanın rifahı və dünyadakı mövqeyinin güclənməsi istiqamətindəki fəaliyyətini uğurla davam etdirəcəyinə əminəm", - R.T.Ərdoğan söyləyib.

# Zelenski Ukraynanın NATO üzvlüyünə qəbul olunmasını istəyib



**Ukrayna Prezidenti Volodimir Zelenski növbəti dəfə Ukraynanın NATO-ya və Avropa İttifaqına üzv qəbul olunmasını istəyib.**

APA-nın xəbərinə görə, Zelenski bu təklifi NATO-nun Parlament assambleyasının Madriddə keçirilən iclasında videobağlantı ilə çıxışı zamanı bildirib.

"Ukraynanın bizim cəmiyyətin müdafiəsinə verdiyi töhfəni öz gözünüzlə görürsünüz. Biz fevralın 24-dən sonra real olaraq birləşmişik. Buna görə də, Ukrayna NATO-nun və Aİ-nin tamhüquqlu üzvü olmalıdır. Mən sizi Ukraynanın NATO-ya və Aİ-yə üzvlüklə bağlı müraciətini dəstəkləməyə çağırıram" - deyə Zelenski vurğulayıb.

# Hədəfmizə çatdıq

Prezident İlham Əliyev: "Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi qalacaq"




**"Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı tarixi hadisə idi".**

Bunu Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) sədri İlham Əliyev YAP-ın yaradılmasının 30 illiyi münasibətilə tədbirdə çıxışında bildirib. Dövlət başçısı qeyd edib ki, o vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı:

"Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdi. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar.

(səh.2)

# Dağın başında da əhali yaşayırsa, ora internet çəkilməlidir

Nazirlik yaxın 1-2 ilə prosesi başa çatdırmağa çalışır



**Hazırda Azərbaycanda 472 min evə fiberoptik kabel çəkilib və 2024-cü ilin sonuna qədər Azərbaycanda bütün evlərə, ucqar kəndlərə fiberoptik kabellər çəkiləcək.**

Bunu Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev noyabrın 21-də "Şəhərlərin və kənd yerlərinin inkişafına innovativ yanaşma: ağıllı şəhər və kəndlər" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, Azərbaycan unversitetlərini hər il İT ixtisasları ilə 3 minə qədər tələbə bitirir.

(səh.4)



# Elm və Təhsil Nazirliyi 1,8 mln. manatlıq insanabənzər robot alıb

**Elm və Təhsil Nazirliyi Nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi steam avadanlıqlarının satınalınması üzrə tenderə yekun vurub.**

"APA-Economics" vahid dövlət electron satınalmalar portalına istinadən xəbər verir ki, tenderin qalibi "Edumedia-Azərbaycan" MMC seçilib.

9 ədəd insanabənzər robot, 302 ədəd müxtəlif 3D printerləri, 4805 ədəd müxtəlif elektrik mühəndisliyi təcrübələrini aparmaq üçün dəst, 140 ədəd lazer kəsim,3D print və lazer oyma dəzgahının alınması ilə bağlı qalib şirkətə 1 milyon 822 min 43.9 manat ödənilib.

# Ölən və yaralanan var

DSX-nin hərbçiləri Cəbrayılda qəzaya düşüb




**Bu gün Cəbrayıl rayonunun Şükürbəyli kəndində Dövlət Sərhəd Xidmətinə (DSX) xidmətə məxsus "UAZ" markalı avtomobil hərəkətdə olarkən "Shagman" markalı yük avtomobili "UAZ"ın hərəkət zolağına çıxıb və qəza baş verib.**

DSX-nin Mətbuat Mərkəzindən "Şərq"ə verilən məlumata görə, qəza nəticəsində bir neçə hərbçi xəsarət alıb.

DSX-nin hərbi qulluqçusu, baş çavuş Elmir Abbasov xəstəxanada həkimlərin müdaxiləsinə baxmayaraq dünyasını dəyişib. Digər yaralıların müayinə və müalicəsi davam etdirilir.

# Koronavirusdan 1 nəfər vəfat edib

21 yeni yoluxma faktı qeydə alınıb



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 21.11.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 823 975 | Yeni yoluxanların sayı | 21 |
| Ümumi sağalanların sayı | 813 753 | Yeni sağalanların sayı | 3 |
| Aktiv xəstə sayı | 249 | Bugünkü test sayı | 1975 |
| Ümumi test sayı | 7 358 931 | Bugünkü ölüm sayı | 1 |
| Ümumi ölüm sayı | 9 973 | | |

Koronavirus İnformasiya Portalı · koronavirusinfoaz · KoronaVirus informasiya portalı · KoronaVirus info

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 21 yeni yoluxma faktı qeydə alınıb, 3 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 975 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 753 nəfər müalicə olunaraq sağalıb, 9 973 nəfər vəfat edib, aktiv xəstə sayı 249 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 975, hazırkı dövrədək isə 7 358 931 test aparılıb.*



# Fransa Brüssel formatını zədələyir

Avropa İttifaqı moderatorluq qabiliyyətini yeni görüş təşkil etməklə bir daha göstərəcək

(səh.4)



# Vilayətinin sülh mesajında gizli minalar yerləşib

Onun açıqlaması Azərbaycan və azərbaycanlılara qarşı təhrif və böhtanlarla, tarixi saxtakarlıqlarla doludur

(səh.3)





# Hədəfmizə çatdıq

## Prezident İlham Əliyev: "Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi qalacaq"

**"Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı tarixi hadisə idi". Bunu Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) sədri İlham Əliyev YAP-ın yaradılmasının 30 illiyi münasibətilə tədbirdə çıxışında bildirib. Dövlət başçısı qeyd edib ki, o vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı:**

"Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdi. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirildi. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı".

**"Torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı"**

Prezident vurğulayıb ki, torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, eyni zamanda, hərbi-strateji nöqteyi-nəzərdən böyük faciə idi. Çünki beləliklə, o vaxt "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlandırılan ərazi ilə Ermənistan arasında coğrafi bağlantı təmin edildi. Hər kəs yaxşı görürdü ki, əgər işlər belə davam etsə, Kəlbəcərin də işğalı qaçılmaz olacaqdır. Əfsuslar ki, belə də oldu. Yəni 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük hissəsi nəzarətimizdən çıxmışdı".

**"Heydər Əliyev Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə Qarabağda separatist qüvvələr baş qaldıra bilmədilər"**

Ölkə rəhbəri qeyd edib ki, Heydər Əliyev Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə Qarabağda separatist qüvvələr baş qaldıra bilmədilər: "Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir. Çünki onun çalışdığı dövrdə - nə 1969-1982-ci illərdə Azərbaycanda birinci şəxs kimi çalışdığı dövrdə, nə 1982-1987-ci illərdə Moskvada Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə bir dəfə də olsun Qarabağda separatist qüvvələr baş qaldıra bilmədilər. Halbuki, belə meyillər var idi, ondan əvvəlki dövrlərdə də var idi. Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar".

**"Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılıb"**

Prezident qeyd edib ki, YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi: "11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, tariximizin o qara səhifəsi bağlandı. Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və əlbəttə, Yeni Azərbaycan Partiyasının üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılmışdır. İlk növbədə, Konstitusiya qəbul edilmişdir. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi. Konstitusiyanın qəbul edilməsi çox önəmli tarixi hadisədir. Dövlətçiliyin əsasları qoyulmuşdur, dövlət təsisatları düzgün zəmində formalaşmışdır. Biz beynəlxalq aləmdə bizə qarşı olan əsassız mövqeyə düzəlişlər edə bildik, tam aradan qaldırmadıq, çünki beynəlxalq müstəvidə bizə qarşı çox ciddi qüvvələr fəaliyyət göstərirdi. Amma hər halda biz beynəlxalq təcridi, o cümlədən informasiya blokadasını yara bildik, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıra bildik".

**"Xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik"**

Prezident vurğulayıb ki, xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik: "Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün bizim kredit reytinqimiz yaxşılaşır. Bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər".

**"Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm"**

Dövlət başçısı bəyan edib ki, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu: "Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir".

**"Biz yoxsulluğu əhəmiyyətli dərəcədə azalda bilmişik"**

Dövlət başçısı qeyd edib ki, hətta pandemiya dövründə yoxsulluq bir qədər artsa da postpandemiya dövründə görülmüş işlər nəticəsində minimum əməkhaqqının, pensiyanın minimum məbləğinin müntəzəm olaraq artırılması nəticəsində yoxsulluğu da biz təqribən 5 faiz ətrafında saxlayırıq: "Bu da dünya miqyasında çox gözəl göstəricidir. Burada həm dövlət siyasəti, həm iqtisadi-maliyyə sektorundakı şəffaflıq, eyni zamanda, biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici sərmayələrin bundan sonra da qeyri-neft sektoruna cəlb edilməsi əsas amillərdən biri olacaq".

**"Aparılan islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək"**

Prezident deyib ki, Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq: "Əlbəttə ki, bu gün hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin".

**"Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun"**

Dövlət başçısı qeyd edib ki, biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq: "Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər Xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi. İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda, ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!".

**"KTMT-də bizim dostlarımız Ermənistanınkından daha çoxdur"**

Dövlət başçısı bildirib ki, beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmlənib: "Bu haqda çox danışmaq olar, sadəcə olaraq bir neçə məqamı qeyd etmək istəyirəm. Biz MDB məkanında birinci ölkə olduq ki, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Biz 2019-cu ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədr seçildik və uğurlu sədrliyimizə görə bizim sədrlik müddətimiz bir il daha uzadıldı, gələn ilin sonuna qədər biz sədrlik edəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstəririk. Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Biz bu təşkilatın üzvü deyilik, Ermənistan bu təşkilatın üzvüdür və bu təşkilat xətti ilə Azərbaycana qarşı əsassız iddia qaldırmaq fikrində idi, faktiki olaraq bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribatdır və böyük cinayətdir. Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər. Yəni bu, nəyi göstərir? Bu təşkilatda bizim dostlarımız Ermənistanınkından daha çoxdur. Nəyə görə? Siyasətimizə görə, bizim etibar tərəfdaş olmağımıza görə. Ermənistana nə üçün münasibət mənfidir? Ona görə ki, onlar hər yerdə yalan danışırlar və öz problemlərini həll etmək üçün necə deyərlər, daha qapı qalmayıb ki, oraya müraciət etməsinlər. Bütün bunlar göz qabağındadır, hər kəs bunu görür, hər kəs bunu bilir".

**"Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib"**

Prezident deyib ki, güclü ordu quruculuğu Ulu Öndərin vəsiyyəti idi: "Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir".

**"Frankofoniya təşkilatındakı dostlarımızın səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri qətnamədən çıxarıldı"**

Prezident qeyd edib ki, Frankofoniya təşkilatındakı dostlarımızın səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri qətnamədən çıxarıldı: "Bu yaxınlarda yenə də üzv olmadığımız, amma Ermənistanın bilmirəm hansı səbəbə görə üzv olduğu Frankofoniya təşkilatı çərçivəsində də Azərbaycana qarşı çirkin bir təxribat planlaşdırılırdı. Bu təxribatın müəllifi Fransa idi və Fransa da Ermənistana indi himayədarlıq edir. Onlar bir-birinə bacı deyirlər və onların özü də mən görürəm, yoldaşlar xüsusilə bunu qeyd etdilər. Mən daha demədim ki, qardaş da deyə bilərdilər, amma nədənsə bacı deyirlər bunlar. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezislər üzərində qurulmuşdur və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın, - onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır, - səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa-Ermənistan tandemi bu imkandan da istifadə edə bilməmişdir. Yəni bu, onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq yoxdur. Biz xarici siyasət konsepsiyamızda əməkdaşlıq, dostluq prinsiplərini üstün tuturuq və imkan daxilində ehtiyacı olan ölkələrə kömək göstəririk, necə ki, COVID dövründə 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Yəni bu, böyük məsələdir. Əlbəttə ki, beynəlxalq arenada özümüzü ləyaqətlə aparmağımız bizə əlavə hörmət qazandırdı".

**"Əlbəttə ki, bu gün hələ də görüləsi işlər çoxdur"**

Ölkə başçısı vurğulayıb ki, iqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir: "O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək".

**İsmayıl**



## Tokayev İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət edib

### Dəvət məmnunluqla qəbul olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, ona Qazaxıstanın inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində, o cümlədən aparılan islahatların həyata keçirilməsi işində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı Qazaxıstan Prezidentinin ölkəmizə son rəsmi səfəri çərçivəsində, eləcə də oktyabr ayında Astanada dövlət başçıları arasında keçirilmiş görüşlər məmnunluqla xatırlanıb, həmin görüşlərdə əldə edilmiş razılıqların uğurla icra edildiyi qeyd olunub.

Kasım-Jomart Tokayev Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə edib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Stoltenberq: NATO ölkələri Ukraynaya yardım etməkdən yorulmamalıdır




**NATO ölkələri Ukraynaya yardım marafonunda yorulmamalıdır.**

APA xəbər verir ki, bu barədə NATO Baş katibi Yens Stoltenberq NATO Parlament Assambleyasının Madriddə keçirilən 68 sessiyası çərçivəsində parlamentarilərin suallarını cavablandırarkən deyib.

"Biz "Ukrayna yorğunluğu"na icazə verməməliyik. Biz bu müharibədə Prezident Putinin qalib gəlməsinə icazə verə bilmərik. Bu, Ukrayna üçün ağır nəticə ilə yanaşı, həm də bizim marağımıza uyğun deyil. Bu, bizim demokratiyamız və təhlükəsizliyimiz üçün vacibdir".

Stoltenberq deyib ki, Ukraynaya dəstəyin davam etdirilməsi Alyansa üzv ölkələrin xalqlarından asılıdır.

"Vətəndaşlara bu dəstəyin davam etdirilməsin vacibliyi hər zaman çatdırılmalıdır", o əlavə edib.

## İsrail İran PUA-ları ilə bağlı Rusiyaya etiraz etdi



**İsrail Rusiyaya Ukrayna ərazisində İran istehsalı olan pilotsuz uçuş aparatlarının (PUA) mümkün istifadəsi ilə bağlı etirazını bildirib.**

Trend xəbər verir ki, bunu bu gün ölkəni Milli Təhlükəsizlik Şurasının rəhbəri Eyal Hulata deyib.

O bildirib ki, bu məsələ Rusiyanın xarici işlər nazirinin müavini Mixail Boqdanovla görüş zamanı müzakirə olunub.

İsrail tərəfinin məlumatlarına əsasən, İran "Shahed-136" dronları ilə yanaşı, Rusiyaya ballistik raketlər də təhvil verməyə hazırlaşır.

## Gürcüstan təhlükənin miqyasını anlamalıdır

### İranın siyasi və dini dairələri Azərbaycanda edə bilmədiklərini Gürcüstanda həyata keçirməyə çalışırlar

**"Azərbaycanda İran təbliğatının, tərəfdar qruplarının və casus şəbəkəsinin fəaliyyəti getdikcə məhdudlaşdırılarkən, qonşu Gürcüstanda vəziyyət fərqlidir".**

Bunu politoloq Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Gürcüstan hakimiyyəti İranın dini təbliğatına sanki loyal yanaşır: "Bunun qarşısını almaq üçün gərəkli addımlar atmır. İranın müxtəlif fondları Gürcüstanda rahat fəaliyyət göstərir və azərbaycanlılar arasında təbliğatı gücləndirmək imkanına malikdirlər. İranın siyasi və dini dairələri Azərbaycanda edə bilmədiklərini Gürcüstanda həyata keçirməyə çalışırlar. Gürcüstan hakimiyyəti ya təhlükənin miqyasını anlamır. Ya da ölkə müsəlmanları arasında məzhəb qarşıdurmasını gücləndirməklə proseslərə daha rahat nəzarət edəcəyini düşünür".

**İsmayıl**

# Proqnoz verildi

## Rusiya-Ukrayna savaşının bitmə tarixi bəlli oldu



“Qərb ölkələrini təmsil edən hərbçilər və analitiklər müharibədə Rusiyanın məğlubiyyətini proqnozlaşdırırlar”

**Amerikanın ”Wall Street Journal”ı ”Ukraynanın Xerson qələbəsi Rusiya ilə bütün cəbhələrdə dinamikanı dəyişdirir” başlıqlı xəbər dərc edib. Qəzetin yazdığına görə, Xersonun qələbəsi hətta uzaq cəbhələrdə də əks-səda verib.**

Moskva artıq öz qoşunlarını yerləşdirir. Ukraynalılar isə üstünlüyünü genişləndirmək üçün yollar axtarır. Rusiyanın doqquz ayda işğal edə biləcəyi yeganə regional paytaxt Xersondan biabırçı şəkildə geri çəkilməli olduğunu xatırladan nəşr xəbər verir ki, Moskva Ukraynanın cənubundakı digər bölgələrə ən yaxşı qoşunlarını köçürüb. Təxminən 20 min əsgər başqa cəbhələrə göndərilsə də, onları ”qismən səfərbərliyə” çağırılan və bir neçə həftəlik təlim keçən yeni çağırışçılar əvəz edib. Məlumata görə, ötən ay Krımı və Rusiya materikini birləşdirən Kerç körpüsünü partladan Ukrayna Moskva gəmilərinin yarımadaya çıxışını yalnız bir dəmir yolu ilə məhdudlaşdırıb. Azov dənizinin sahilinə qədər gedən dəmir yolu hazırda ukraynalıların atəş məsafəsindədir.

”The Wall Street Journal” yazıb ki, Donetskdə Baxmutu ələ keçirmək üçün hücuma keçən rus işğalçıları növbəti dəfə ukraynalılar tərəfindən dəf edilib. Qəzetə danışan hərbi strateqlər deyirlər ki, ardıcıl üç qələbə qazanan Ukraynanın bir neçə cəbhədə təzyiq göstərmək şansı olub. Rus ordusunda isə 300 min ehtiyat əsgərin ”qismən səfərbərlik”lə cəbhəyə sürgün edilməsinə baxmayaraq, iğtişaş səngiməyib, əhval-ruhiyyə aşağı səviyyədədir. Sosial şəbəkələrdəki paylaşımlar rus qoşunlarının parçalandığını göstərir. Nəşr xüsusilə ABŞ-ın göndərdiyi uzun mənzilli HIMARS raketlərinin cəbhədəki tarazlığı dəyişdiyini və Dnepr çayının qərb sahilinə çatan ukraynalıların artıq Rusiyanı hədəf alaraq şərq və cənuba kilometrlərlə irəliləyə biləcəyini bildirib. Hazırda Ukrayna qoşunları Dnepr çayının qarşı sahilində rus işğalçılarını atəşə tutur. Bəzi xüsusi təyinatlılar isə çayın o tayına enib.

Krımla Rusiyanın materik hissəsini birləşdirən Kerç körpüsünün təmiri hələ başa çatmayıb. 2014-cü ildən Ukrayna ordusuna məsləhət verən britaniyalı istefada olan polkovnik-leytenant Qlen Qrant Dnepr çayını keçəcəyi təqdirdə rus işğalçılarının qaçacağını proqnozlaşdırır: ”Ukraynalılar çayı kütləvi şəkildə keçsələr, ruslar Xersonda olduğu kimi qaçmağa davam edəcəklər. Rusiya regionda açıq-aşkar çıxılmaz durumdadır. Ukraynalılar Dnepr çayının sahillərinə nə qədər tez çatsalar, onlar üçün bir o qədər yaxşı olacaq”. ABŞ-ın Birləşmiş Qərargah Rəisləri Mark Milley keçən həftə bildirib ki, ukraynalılar qış yaxınlaşsa da Rusiyaya təzyiqlərini davam etdirməlidirlər. General Milley əlavə edib ki, həftələrdir Rusiyanın hücumları dalğası altında olan Baxmutda ukraynalılar çox uğurlu mobil müdafiə edir. Ekspertlər bu gedişlə qısa zamanda Rusiya-Ukrayna savaşının sona çatacağını bildirirlər. Təbii ki, Qərb ölkələrini təmsil edən hərbçilər və analitiklər müharibədə Rusiyanın məğlubiyyətini proqnozlaşdırırlar.

**İsmayıl**

# Vilayətinin sülh mesajında gizli minalar yerləşib

## Onun açıqlaması Azərbaycan və azərbaycanlılara qarşı təhrif və böhtanlarla, tarixi saxtakarlıqlarla doludur



**İranın Ali Rəhbərinin müşaviri Əli Əkbər Vilayəti son zamanlar Azərbaycanla İran arasında yaşanan gərginliklə bağlı açıqlama verib. Vilayəti İran siyasi hakimiyyətinin nüfuzlu şəxslərindən biridir. Ölkənin xarici siyasətini demək olar ki, məhz o müəyyənləşdirir. Deyib ki, əgər bir gün Azərbaycan Respublikası xarici ölkə tərəfindən hücuma məruz qalsa, İran dəstək üçün Azərbaycan Respublikasının yanında olacaq:**

”İranın qüdrəti dostlarımıza deyil, İran və Azərbaycanın və həmçinin digər qonşularımızın düşmənlərinə qarşıdır. Azərbaycan xalqı bizim gözümüzün nurudur. Son həftələrdə bəziləri məlumatsızlıqdan, bəziləri isə qərəzli şəkildə İranın Azərbaycan Respublikası ilə döyüşmək istədiyi barədə şayiələr yayırlar. Bu, İrana qarşı namərdcəsinə atılan böhtandır. İranın istər Qafqazda, istərsə də başqa yerdə heç bir ölkəyə, o cümlədən də qonşularına hücum etmək fikri yoxdur. Xüsusən də eyni irqdən, dildən, dindən, adət-ənənədən, tarixdən olan insanlar, yəni Azərbaycan xalqı gözümüzün işığıdır...”. Xatırladaq ki, Vilayətinin məqaləsi genişdir, lakin əksər media qurumları sadəcə ”müsbət” məqamları tirajlayıblar. Halbuki, Vilayətinin məqaləsinin xeyli yerində hədyanlar, böhtanlar yer almaqdadır. Ekspertlərə görə, İran rəsmisi açıqlaması ilə əslində ölkəsinin nə qədər çirkin və yanlış siyasət apardığını ”etiraf” etmiş oldu. Çünki iki ölkə arasında gərginliyin yaranmasının səbəbkarı İran özüdür. ”Ermənistanın ərazi bütövlüyünün pozulması bizim üçün qırmızı xətdir” deyənlər də İran rəsmiləridir. Ermənistana yüksək səviyyəli səfərlər edən, Qafanda konsulluq açan, Təbrizdə Ermənistan konsulluğunun açılması bəyanatını verən də Tehran rejimidir. Ona görə də yaxşı olar ki, İran başqalarının gözündə tir axtarmaqdansa, öz gözündəki çöpü görsün.

**Politoloq Turab Rzayev də hesab edir ki, Vilayətinin mesajı Azərbaycan və azərbaycanlılara qarşı təhrif və böhtanlarla, tarixi saxtakarlıqlarla doludur. Analitikin fikrincə, burada dostluq və qardaşlıq mesajı görmək çox çətindir:**

”Mətnə diqqət yetirdikdə Azərbaycan Respublikasına və xalqına qarşı iddialar, Azərbaycan mirasına iddialar hər sətirdə mövcuddur. Bütün problemlərdə sionistlər (İsrail) və türklər (Türkiyə) səbəb göstərilir. Mətnin əsas çağırışı isə ənənəvi olaraq deyilən, ”İranı azərbaycanlılar idarə edir, siz digərlərinə (kürd, bəli, ərəb, sünni) qoşulmayın, öz dövlətinizi qoruyun” mesajıdır. Beləliklə, Vilayətinin dostluq, qardaşlıq və sülh mesajı gizli minalarla doludur.

”İran Azərbaycan ilə eyni irqi, dili, dini, adət-ənənəsi və tarixi bölüşür”. Burada açıq şəkildə Azərbaycan xalqı fars (və ya İran) xalqı kimi təqdim edilir. ”Baxmayaraq ki, bizimlə Arazdan şimalda yaşayan azərbaycanlılar arasında ayrılıq var...” deyən Vilayəti bu sözləri ilə Azərbaycan dövlətini və millətini İranın uzantısı kimi görməyə davam edir. Mətndə 4 dəfə ”sionistlər ” ifadəsi keçir. Azərbaycan İsraildə səfirlik açdığı dönəmdə, bu, bizə qarşı açıq təhdiddir. Türkiyə hədəf göstərilir. Qardaş ölkənin ”Daily Sabah” nəşri İrandakı azərbaycanlıları üsyana çağırışda ittiham edir. Guya türklər 1918-ci ildə Azərbaycan Cümhuriyyətinə ”hücum ediblər”. Məqalədə xalqların minillik dostluqları göstərilsə də, həmişə farsların üstün olduğu xüsusi diqqətə çatdırılır. Halbuki, tarix tərsini sübut edir”.

**İsmayıl**

# İmtahan yoxlamalarına ekspert çatışmır

## Müəllimlər DİM-də vaxt itirmək istəmir

“Çünki markerlik etsələr, tədris proqramı pozulacaq, repetitorlara da bu sərf etmir”



**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə imtahanlarda yazı işlərini yoxlayan ekspertlərin say azlığından gileylənib. KİV-ə açıqlamasında M.Abbaszadə deyib ki, imtahan yazı işləri ən azı iki dəfə, müəyyən hallarda isə hətta üç dəfə yoxlanılır:**

”Müəyyən fənlərdən, xüsusən də rus bölməsində ekspertlərin sayı çox azdı. Şagirdlər kifayət qədərdi, amma ekspertlər azdı. Bu səbəbdən yoxlama prosesi uzanır. Bizdə 6 minə yaxın marker, ekspert var. Markerlərin sayı, məsələn, 20 min olsa, biz yoxlamanı daha tez həyata keçirərik”.

**Problemin yaranma səbəbləri barədə ”Şərq”ə danışan Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov qeyd etdi ki, marker azlığı, ümumiyyətlə, mütəxəssis çatışmazlığı ilə bağlıdır:**

- Ölkədə, ümumiyyətlə, mütəxəssis çatışmazlığı var. Ali və orta ixtisas təhsili müəssisələri mütəxəssis hazırlığını lazımi səviyyədə icra etmir. Ona görə də bu cür problemlər yaranır. Marker çatşmazlığının əsas səbəbi bu sahə üçün mütəxəssis hazırlığının lazımi səviyyədə olmamasıdır. Digər səbəblər də var. Müəllimlərin böyük əksəriyyəti repetitor fəaliyyəti ilə məşğul olduğundan mütəxəssis kimi DİM-lə əməkdaşlıq edə bilmir. Çünki bu, onların vaxtını alır, tədris ili boyunca repetitorluqla məşğul olanları markerlik cəlb etmir. Markerlik etsələr, tədris proqramı pozulacaq, repetitorlara da bu sərf etmir. Müəllimlər DİM-də vaxt itirmək istəmir. İkincisi, ali məktəblərdə kurrikulum proqramının xüsusiyyətləri fənn kimi tədris olunmadığından ali məktəb tələbələri bunu bilmir. Onlara bunu öyrədən də yoxdur. Ona görə imtahanlarda da kurrikulum standartları ilə qiymətləndirməni bacarmırlar. İmtahan modelləri də mütəmadi dəyişdiyindən, onları əxz eləmək də çətindir. Problemdən çıxış yolu ali məktəblərin sırf markerlik üzrə mütəxəssis hazırlamasıdır. Mütəxəssis hazırlığı yüksək səviyyədə olsa, bu sahədə problem yaşanmayacaq.

**K.Əsədov qeyd etdi ki, DİM imtahanlara cəlb edilən mütəxəssislərə, markerlərə yaxşı məvacib verir:**

- Hər suala görə çox yaxşı məbləğ ödənilir. DİM-in cəlb etdiyi mütəxəssislər, müəllimlər işə görə yaxşı əmək haqqı alırlar. Lakn bu, daimi deyil, mövsümidir deyə, müəllimlər daimi işlərini - repetitorluğu bir kənara qoyub DİM-də vaxt itirmək istəmirlər. Ştat vahidinə uyğun olmadığı üçün DİM onları daimi işə də götürə bilmir. Bu səbəblərdən imtahanlarda problem yaşanır.

**Məlahət Rzayeva**



**İnsanların 30 ildən sonra öz evlərinə qayıtmasını görmək olduqca həyəcanvericidir.**

**APA xəbər verir ki, bunu Zəngilanın Ağalı kəndinə və Xudafərin körpüsünə səfər edən Hudson İnstitutunun böyük elmi işçisi Maykl Doran jurnalistlərə açıqlamasında deyib.**

# "Çox həyəcanlı irəliləyişlər baş verir"

## Maykl Doran: Ermənistan sülhün bərqərar olmasının əhəmiyyətini görəcək

O bildirib ki, Azərbaycan hökumətinin vacib infrastrukturun qurulması üçün nə qədər sürətlə işlədiyini görmək heyrətamizdir: ”Bu, sadəcə möhtəşəm hisslər bəxş edir. Bu, mənim strateji baxımdan da çox xoşuma gəldi və hesab edirəm ki, Azərbaycanın ABŞ üçün dəyəri yüksələn dövlət kimidir. Həmçinin, Azərbaycanın Türkiyə və İsraillə müttəfiqliyi Qərb üçün çox böyük üstünlükdür. Mən ümid edirəm ki, ABŞ-a qayıdıb insanlara bu ərazilərin nə qədər strateji olduğunu və milli maraqlarımız üçün nə qədər dəyərli olduğunu izah edə biləcəyəm”.

Amerikalı tədqiqatçı Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasından da danışıb: ”Bununla bağlı onu deyə bilərəm ki, çox həyəcanlı irəliləyişlər baş verir. Mən həqiqətən ümid edirəm ki, Ermənistan tərəfi sülhün bərqərar olmasının əhəmiyyətini görəcək. Müharibə oldu, onlar müharibəni uduzdular, amma düşünürəm ki, onların Azərbaycanla sülhün qurulmasında marağı var və hesab edirəm ki, irəliyə doğru yol çox sadədir: Zəngəzur dəhlizini açın, sərhədləri demarkasiya edin, Azərbaycan ərazilərini minalamağa son qoyun və bundan sonra Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdıra bilərsiniz. Və hamı bundan fayda görəcək”.



# Azərbaycanda 50 nəfər siyasi partiya təsis edə biləcək

## “Siyasi partiyalar haqqında” qanun layihəsinin yenilənmiş variantı təqdim olundu

**Müzakirə mərhələsində olan ”Siyasi partiyalar haqqında” qanun layihəsinə edilən redaktələr ictimaiyyətə açıqlanıb. Partiyalardan gələn etirazlar nəzərə alınaraq bir sıra maddələrdə dəyişikliklər edilib. Məsələn, siyasi partiya Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaşı (təsisçilər) tərəfindən təsis ediləcək.**

Qanun layihəsinin ilkin versiyasına əsasən, siyasi partiya Azərbaycan ərazisində son 20 il daimi yaşayan və tam fəaliyyət qabiliyyətli olan azı 200 vətəndaş tərəfindən təsis edilə bilərdi. Bu say 50-yə salınıb və 20 il tələbi aradan qaldırılıb. Bundan əlavə partiyalara üzvlük haqları, ianələr də vergidən azad olunacaq. Pensiyaçılar və digər sosial müdafiəyə ehtiyacı olanlara, tələbələrə üzvlük haqlarının ödənilməsində imtiyaz və ya güzəşt müəyyən edilə bilər. Seçkilərdə 2 dəfə iştirak etməyən partiyaların ləğvinə dair tələb də ləğv olunub. Eyni zamanda siyasi partiyanın dövlət qeydiyyatına alınması ilə bağlı tələb də dəyişib. Yeni redaksiyaya əsasən, dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 5 min üzvü olması tələb kimi qoyulub. Qeyd edək ki, qanun layihəsinin ilkin versiyasına əsasən, dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 10 min üzvü olmalı idi. 3 faiz səs şərti də ləğv olunub, seçkilərdə parlamentdə yer qazanmayan bütün partiyalar maliyyə yardımı alacaq. Qanun layihəsinə əsasən, qeydiyyatda olan partiyalara üzvlərinin sayını 5 minə çatdırmaq üçün 180 gün vaxt veriləcək. Yeni qanunun qəbulundan sonra üzvlərinin sayını 180 gün ərzində 5 min nəfərə çatdıra bilməyən dövlət qeydiyyatına alınmış partiyaların ləğvi barədə Apellyasiya Məhkəməsində iddia qaldırılacaq. Qeyd edək ki, qanun layihəsinin ilkin versiyasına əsasən, yeni qanun qüvvəyə minənədək dövlət qeydiyyatına alınmış siyasi partiya bu qanunun qüvvəyə mindiyi tarixdən 90 gün müddətində üzvlərinin sayının azı 10 min nəfərə çatdırılması üçün tədbirlər görməlidir. Həmçinin, üzvlərin reyestrini tərtib edərək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməlidir.

Təşkilat rəhbərləri deyib ki, partiya üzvlərinin reyestrdən keçirilməsi tələbi absurddur

**Qanun layihəsindəki bəzi dəyişikliklərlə bağlı ”Şərq”ə danışan AĞ Partiya sədri Tural Abbaslı qeydiyyat və başqa prosedurlardakı dəyişiklikləri nisbətən müsbət dəyərləndirsə də, partiya üzvlərinin reyestrdən keçmə tələbinin absurd olduğunu düşünür:** ”Axı üzvlərin qeydiyyatı, məlumatları dövlətə niyə lazımdır ki?! Qanun layihəsində partiyaların gündəlik, praktik işini çətinləşdirən məqamlar var. Söhbət partiyaların təsis olunmasından getmir. Üzvlərin reyestr məsələsi çox problemlidir. Onsuz da partiyalar rəsmi qeydiyyatdan keçdikdə bu məlumatları müvafiq qurumlara təqdim edirlər. Ancaq yeni qanun layihəsində öhdəlik var ki, partiya hər il bu reyestri həyata keçirməlidir. Yəni üzvlərin siyahısını tərtib edərək ildə bir dəfə təqdim etməlidir. Bunu fiziki baxımdan reallaşdırmaq da çətindir. Bir misal gətirim, Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Azərbaycanda 5 milyon seçici var. Bu siyahı ildə bir dəfə yenilənir və hər yenilənməyə görə dövlət büdcəsindən 30 milyon vəsait ayrılır. Yəni milyonlarla pul ayrılır. İndi izah etsinlər ki, partiyalar hər il bu hesabatı necə verəcəklər?! İlk növbədə reyestr məsələsi ləğv olunmalıdır”.

**AMİP funksioneri Əli Oruclu da ”Şərq”ə açıqlamasında reyestr tələbinə etirazını bildirib. Partiya təmsilçisi deyib ki, açıqlanan nüanslar xırda məsələlərdir və əsas məqam üzvlərin reyestridir:** ”Belə tələblər partiyaların inkişafına mane olur. Onsuz da Azərbaycanda siyasi partiyalara münasibət, yəni insanların meyli çox azdır. Ona görə də saylarla, rəqəmlərlə bağlı tələbləri düzgün saymırıq. Üzvlərin reyestri nəyə lazımdır? Bir vətəndaşın hansı partiyaya üzv olması məlumatı niyə müvafiq quruma göndərilməlidir? Özü də hər il təkrar olunmalıdır. Ola bilər, hansısa partiyaya üzv olan vətəndaş ümumiyyətlə bu məlumatı paylaşmaq istəmir. Partiyalar vətəndaşlara dövlətin siyasi sistemində iştirak imkanı yaradır. Əgər biz partiya olaraq özümüz siyasi sistemdə iştirak edə bilmiriksə, üzvlərimizin iştirakını necə təmin edək?”.

**İsmayıl**

# Fransa Brüssel formatını zədələyir

## Avropa İttifaqı moderatorluq qabiliyyətini yeni görüş təşkil etməklə bir daha göstərəcək

**"Fransa Avropa Birliyinin aparıcı üzvü olduğundan onun atdığı addımlar və Bakının maraqlarını İrəvana qurban vermək cəhdləri Brüssel formatını da zədələyir". Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Parisin qışqırıq səsləri onun İttifaqdan kənar Cənubi Qafqazda erməni kartı ilə oynamasına əsaslanır:**



"Rusiyanın əsas planı budur ki, gələcəkdə Qarabağda rus icmasını inşa etsin və sülhməramlılar regiondan çıxdıqdan sonra Moskva əlini həmin icma ilə gücləndirsin"

"Ancaq səbəblərdən asılı olmayaraq Fransa Bakı-İrəvan danışıqlarının Brüssel üsuluna xələl gətirir və Bakının başqa formatlar axtarışına çıxması üçün əsaslar verir. Avropa İttifaqı itirilmiş mövqelərinə geri qayıtmaq üçün səylər göstərir. Əslində, Brüssel gündəmi Cənubi Qafqazdakı oyunçular üçün ən optimal variantdır. Ona görə də İttifaq yenidən Şarl Mişelin vasitəçiliyi ilə keçirilən danışıqlar raundunu canlandırmaq niyyətlərini əyan edir və bir növ dövlət başçısı İlham Əliyevə minnətçi düşür. Nümayəndə heyətinin İrəvandan Bakıya gəlişi ilk baxışda dipomatik bitərəflik prinsipinə sadiqlik nümayişi kimi görünür. Məsələnin orijinalında isə Brüssel Bakının könlünü almaq üçün səy göstərir. Avropa İttifaqının xüsusi elçisi Dirk Şuebelin dövlət başçısı İlham Əliyevlə görüşdə Ermənistan rəhbərliyindən sülh mesajları aldığını deməsi növbəti dəfə Avropa İttifaqının mərkəzində dayandığı sülh danışıqlarını davam etdirməyə çağırışdır. Amma Azərbaycanla Ermənistanın sülhə dair təsəvvürləri bir-birindən fərqlənir, bu baxımdan Əliyev İrəvanın qeyri-səmimi olduğunu Şuebelin diqqətinə çatdırır".

**Ekspertə görə, Azərbaycanın sülh üçün şərtləri İrəvana ən ağır kapitulyasiya aktı kimi gələ bilər:** "Lakin Bakı Ermənistanda revanşizmin baş qaldırmasını, ölkənin yenidən silahlanmasını perspektivdə genişmiqyaslı hərbi təxribatların siqnalı kimi görür. Ona görə də Bakı Ermənistana təzyiqlərini artırır. Hərbi güc tətbiqini, maksimal olmasa da, müəyyən limitə qədər nümayiş etdirir və ya belə senarilərin proqnozunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Bakı ilə razı olmayan tərəflər onun diqqətini sərhəddən kənara - Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərə yönəldirlər. Bu işdə istər ABŞ, istər Fransa, istərsə də Rusiya canfəşanlıq göstərir. Lakin hərəsinin öz strateji məntiqi var ki, bu da tərəflər arasındakı gərginliyi çoxaldır. Rusiyanın masaya erməni amilini qoymasının və niyyətlərini Bakıya qarşı itiləməsinin səbəbləri Kremlin Qarabağdakı mübahisəli məsələlərin əbədi qalmasına nail olmaq məqsədlərinin göstəricisidir. Ölkə rəhbəri İlham Əliyev Dirk Şuebellə danışıqlarda Rusiyaya mesajını Moskvanın, eyni zamanda da ABŞ-ın ünvanına "sizin başqa planlarınızdan xəbərimiz var" kimi səslənən ritorika ilə qeyd etdi. Rusiyanın əsas planı budur ki, gələcəkdə Qarabağda rus icmasını inşa etsin və sülhməramlılar regiondan çıxdıqdan sonra Moskva əlini həmin icma ilə gücləndirsin. ABŞ isə Qarabağdakı ermənilərin hüquqlarını önə çəkir, Bakı Vaşinqtonun tezisləri ilə razılaşsa, bu, Azərbaycan üçün perspektivdə başağrısına çevrilə bilər. Yəni həm ABŞ, həm də Rusiya Qarabağ ermənilərini amilini özlərinin xarici siyasətlərində alət kimi saxlamaq siyasətini davam etdirmək istəyirlər. Amma Azərbaycan da israrlıdır və Qarabağ mövzusunu daxili təhlükəsizlik prosedurlarının nüvəsində saxlamaq üçün ideyalarını mühafizə edir".

**A.Kərimov qeyd edib ki, dövlət başçısının mesajı da elə bu idi ki, erməni azlıqların hüquqlarının sülh sazişində təsbit olunması mümkün deyil, yəni həmin mövzu digər oyunçuların xarici siyasət prioritetlərindən çıxmalıdır:** "İrəvanın istər sərhədlər, istərsə də Qarabağa dair ikimənalı mövqeyini saxlamaq cəhdləri digərlərinin əlinə fürsət tanımamalıdır. Dövlət başçısının ismarışı bundan ibarətdir ki, gələcəkdə də Bakı həmin tezislərin reallaşmasına imkan verməyəcək.

Ermənistan hələ də həm Rusiyaya, həm də Qərbə bel bağlamağa davam edir, erməni milyarder Ruben Vardanyanın Xankəndiyə gəlişi də İrəvanı az da olsa ruhlandırır. Amma Vardanyan daha çox Rusiya kartıdır və o, Moskvanın planlarının icraçısıdır. Azərbaycan dövləti Qarabağdakı ermənilərin hüquqları mövzusunu Vardanyanla və ya Nikol Paşinyanla deyil, məhz elə Qarabağ erməniləri ilə təmasları davam etdirməklə müzakirə etməkdə maraqlıdır. Prezidentin bəyanatı da həmin məzmunu açır. Proqnozumuza gəlincə, Avropa İttifaqı moderatorluq qabiliyyətini yeni görüş təşkil etməklə bir daha göstərəcək.

Azərbaycan hazırda Rusiya ilə siyasi gərginlik mərhələsindədir. Rusiya isə Qarabağda erməni əhali hesabına rus icması yaratmaq planlarını başqa forma və ölçüdə göstərəcək. Lakin Bakı ilə razılıq əsasında bu, Azərbaycanın təhlükəsizliyinə xələl gətirəcək həddə qədər inkişaf etməyəcək".

**İsmayıl Qocayev**



# MEDİA jurnalistlərlə bağlı daha bir təlimə yekun vurdu

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə 40-a yaxın jurnalist üçün keçirilən "Etika, müəllif hüquqları və jurnalistika" mövzusunda təlimlər yekunlaşıb.**

"Şərq" xəbər verir ki, təlimlərin ikinci günündə də Tülin Daloğlu tərəfindən jurnalistlərə "Media məzmununun etik və peşəkar şəkildə idarə edilməsi", "Mənbənin konfidensiallığı: Etik və hüquqi məsələlər", "Redaksiya siyasəti və jurnalist etikası: peşəkar dəyərlərin formalaşması", "Müəlliflik hüququ: Eksklüziv hüquqlar və müəllif hüquqlarının pozulması" və s. mövzularda təlimlər keçirilib, interaktiv müzakirə sessiyaları olub, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Jurnalistlər üçün keçirilən təlimlərin məqsədi jurnalist peşəsinin əsas prinsiplərinin, etika qaydalarının və müəllif hüquqlarının qorunmasının, ictimaiyyəti düzgün məlumatlandırmaq məsuliyyətinin vacibliyinin bir daha vurğulanmasıdır.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# Səfirliyin açılması tarixi hadisədir

## İsrail Azərbaycanın ən vacib tərəfdaşlarınfdan biridir



**"Ölkəmizin dost və müttəfiq İsraildə səfirlik açmaq təşəbbüsü doğrudan da tarixi hadisədir. Milli Həmrəylik Partiyası olaraq Azərbaycanın İsraildə səfirlik açması ilə bağlı qanun layihəsini dəstəkləyir və alqışlayırıq".**

*Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri qeyd edib ki, İsrail Azərbaycanın ən vacib tərəfdaşlarından biridir:* "Qonşumuz və dindaşımız İrandan fərqli olaraq bu ölkə hər zaman Azərbaycanın haqq işinə dəstək verib, ərazi bütövlüyümüzü dəstəkləyib, 44 günlük müharibə zamanı öz siyasi dəstəyini bizdən əsirgəməyib. Səfirlik açmaq qərarı sıradan bir hadisə deyil. Hesab edirik ki, bu addım ölkələrimizi daha da yaxınlaşdıracaq. İki ölkə arasında münasibətlər daha da dərinləşəcək, eyni zamanda xalqlarımız, insanlarımız arasında da əlaqələr genişlənəcək. Ölkəmizin beynəlxalq nüfuzu və siyasi çəkisi daha da artacaq. Azərbaycan İsrail ilə müsəlman ölkələri arasında siyasi-diplomatik körpülərin qurulmasında açar ölkə rolunu oynayacaq. İsraildə açılacaq Azərbaycan səfirliyinin fəaliyyəti xalqlarımız üçün xeyirli-uğurlu olsun!".

**İsmayıl**



# "Saatlar İranın əleyhinə işləyir"

## BMT Baş Assambleyasının qətnaməsi hələ xəbərdarlıqdır

**BMT Baş Assambleyası İran əleyhinə qətnamə qəbul edib. Qətnamədə İranda insan haqlarının ciddi şəkildə pozulmasından dərin narahatlıq ifadə edilir.**

Ancaq bununla yanaşı, İran Prezidenti Həsən Ruhaninin bəzi sahələrdə insan hüquqlarının yaxşılaşdırılması ilə bağlı verdiyi vədlər, xüsusilə qadınlara və dini azlıqlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, ifadə və etiqad azadlığı ilə əlaqədar diqqət və səyləri təqdir olunur. Sənəddə həmçinin H.Ruhaninin mülki hüquqlarla bağlı təşəbbüsü alqışlanaraq, İrandan üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi üçün konkret addımlar atması istənilir.

Qeyd edək ki, bu qətnamə ötən ay BMT Baş Assambleyasının üçüncü komitəsində 83 lehinə, 36 əleyhinə və 62 ölkə bitərəf qalmaqla qəbul edilmiş sənəd əsasında təsdiqlənib. Bu qətnamənin heç bir hüquqi nəticəsi olmasa da, İrana qarşı bir qədər beynəlxalq təzyiqləri artıracaq və onu dünyadan təcrid etmiş olacaq. Qətnamə qəbul edilməmişdən əvvəl İranın BMT Baş Assambleyasındakı nümayəndəsi onu qəbuledilməz adlandırıb və ölkəsindəki reallıqları əks etdirmədiyini bildirib.

**İranın daxili-siyasi vəziyyətinin get-gedə pişləşdiyini deyən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, cənub qonşumuzun əsas planı cəmiyyətin fikrini başqa məsələlərə yönəltməkdir:** "Onlar Azərbaycana qarşı əzələ nümayiş etdirərək, daxili qarşıdurmada xarici amilin rolunu qabartmaq istəyir. Yəni dünyanı düşündürməyə çalışırlar ki, İrandakı aksiyalarda Bakının da "əli" var və onun arxasında İsrail dayanır. Amma İran cəmiyyəti üçün daxili səbəblərin nədən ibarət olduğu bəllidir.

Ümumiyyətlə, cənub qonşumuzun dəsti-xətti o qədər uğursuzdur ki, onların bəzi rəsmiləri Azərbaycanla açıq kompromisə getmək niyyətindən kənar dayanır.

Bütün bunlar isə rəsmi Tehranın nə dərəcədə ziddiyyətli siyasət apardığını bir daha sübut edir. Yəni İran daxilindəki müəyyən qütblər anti-Azərbaycan mövqeyində qalmaqdadır. Digər qütblər isə Bakı ilə münasibətləri saxlamaq niyyətini oraya qoyurlar. Çünki müxtəlif layihələrin həyata keçirilməsi Azərbaycansız mümkün deyil.

BMT tərəfindən qəbul edilən qətnamə isə onu göstərir ki, saatlar rəsmi Tehranın əleyhinə işləyir. Son nəticədə isə uduzan tərəf İran və molla rejimi olacaq".

**Nihat Müzəffər**

# Dağın başında da əhali yaşayırsa, ora internet çəkilməlidir

## Nazirlik yaxın 1-2 ilə prosesi başa çatdırmağa çalışır

**Hazırda Azərbaycanda 472 min evə fiberoptik kabel çəkilib və 2024-cü ilin sonuna qədər Azərbaycanda bütün evlərə, ucqar kəndlərə fiberoptik kabellər çəkiləcək. Bunu Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev noyabrın 21-də "Şəhərlərin və kənd yerlərinin inkişafına innovativ yanaşma: ağıllı şəhər və kəndlər" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib.**



"Alternativ qiymətlər də təklif edilməlidir, vətəndaşlara. Gün ərzində bir neçə saat internetdən istifadə edən vətəndaş niyə 15-20 manatlıq internetə qoşulmalıdır? Kim daha sürətli internet istəyirsə, buna ehtiyacı varsa, yüksək məbləğli internet xidməti üçün yüksək məbləğ ödəyəcək"

O qeyd edib ki, Azərbaycan unversitetlərini hər il İT ixtisasları ilə 3 minə qədər tələbə bitirir. "Biz çalışacağıq ki, digər ixtisaslardan olan tələbələrə, məsələn, fizika, riyaziyyat üzrə tələbələrə də təlimlər keçməklə İT ixtisası üzrə tələbələrin sayını artıraq. Azərbaycanda bu sahədə mütəxəssisə ehtiyac var. Azərbaycan Texniki Universiteti ilə razılaşmamız var, yaxın illərdə universitet tərəfindən təhlükəsizlik üzrə 932 mütəxəssis hazırlanacaq və bu sahədə mütəxəssislərin yetişdirilməsi davam etdiriləcək", - deyə nazir əlavə edib.

Məlumdur ki, əhalinin müasir və keyfiyyətli telekommunikasiya xidmətləri ilə təmin edilməsi məqsədilə GPON (Gigabyte Passive Optical Network - Qiqabit tutumlu passiv optik şəbəkə) layihəsi icra edilir. Paytaxt da daxil, respublikanın regionları GPON texnologiyası ilə internet xidmətləri təmin edilir və bu xidmətlər fiber-optik xətləri üzərindən qurulur. Görülən işlər çərçivəsində müxtəlif tutumlu mis kabellər istismardan çıxarılaraq kütləvi şəkildə müasir standartlara cavab verən fiber-optik kabellərlə əvəzlənir. Bu layihə çərçivəsində hər bir mənzildə istifadəçilər "1 xətt - 3 xidmət" paketinə qoşulmaq imkanı əldə etməlidir. Bu xidmətlərə sabit telefon xidmətindən istifadə, yüksəksürətli internet təminatı və 150-dən yuxarı yerli və beynəlxalq telekanalı izləmə (yaddaşda qalan son 3 günü arxivdən istənilən yayıma baxmaq imkanı ilə) daxildir.

Lakin əhali görülən işlərdən o qədər də razı deyil. Nazir bütün ölkə vətəndaşlarının fiberoptik internetlə təmin ediləcəyini deyir, amma heç paytaxt tam olaraq təmin edilməyib. Üstəlik, fiberoptik internetin daha sürətli və keyfiyyətli olacağı vəd edilsə də, əhali arasında hələ ki bunu hiss etməyənlər, əksinə, fiberoptik qurulandan internet zəiflədiyini, kəsintilərin artdığını bildirənlər "bir çox yerlərdə çəkilən fiberoptikin sürəti adına layiq deyil. Xüsusilə axşam saatlarında sürətin düşdüyü hiss olunur", deyir.

**Məsələ ilə bağlı izah verən Azərbaycan İnternet Forumunun prezidenti, Multimedia Mərkəzinin direktoru Osman Gündüz nazirliyin yaxın zamanda prosesi başa çatdırmağı planlaşdırdığını deyib:**

- Nazirlik yaxın 1-2 ilə prosesi başa çatdırmağa çalışır. Son iki ildə 400 mindən çox ailəyə fiberoptik internet çəkilib. Fiberoptik internet daha keyfiyyətli, dayanıqlı və ucuzdur. İnanıram ki, 2024-cü ilədək RİNN bütün ölkə üzrə keyfiyyətli internetə əlçatanlıq problemini birdəfəlik bitirəcək. Paytaxtın tam təmin edilməsi ilə bağlı da nazirlikdə bəlli bir yanaşma var. İstənilən halda nazirlik qeyd olunan müddətdə bütün ölkə üzrə, şəhər, kənd, qəsəbə, Bakı və Bakı ətrafında bu məsələni bitirəcəyini, bütün ölkənin əhatə olunacağını rəsmi olaraq bildirib. Yəni vətəndaşın istəyib istəməməyindən asılı olmayaraq infrastruktur qurulub başa çatmalıdır. Hətta dağın başında da əhali yaşayırsa, ora da internet xətti çəkilməlidir, yaxud ayrı texnologiya ilə internet verilməlidir. Monitorinqlərimiz də göstərir ki, bu istiqamətdə bir qədər ləng olsa da, işlər aparılır. Hazırda həm dövlət, həm də çox sayda özəl var ki, Bakı ətrafı və regionlarda GPON texnologiya ilə fiberoptik internet çəkilişini reallaşdırırlar. Məsələn, "Smart", "BirLink", "Baktelecom", "Azeronline", "Transeurocom" və sair.

Fiberoptik internet məsələsi sosial şəbəkələrdə də müzakirə edilir. İstifadəçilər bildirir ki, GPON ilə monopoliya olmamalıdır, digər şirkətlər də xətlərini çəkib normal şəraitdə fəaliyyət göstərməli, ATS-dən asılılıq aradan qalxmalıdır. Təmirli evlərlə bağlı daha bir problem üzə çıxır. Kabellər divar içi ilə nöqtələrə paylanır, bu isə keçmişə dönüş hesab edilir. Optik kabel məcburən açıq şəkildə çəkilməli olacaq və bu, çox eybəcər görünüş yaradacaq. Bir neçə aydır ki, "Citynet" "Ultel" üzərində sahibliyə keçib və artıq əhaliyə gəlib "Huawei" modemi verirlər ki, telefon şəbəkəsi də gələcəkdə işləsin. Bir istifadəçi yazır: "Mən şəxsən imtina etdim şəhər nömrəsindən, çünki onların verdiyi zəif modemi əsas modem kimi istifadə etmək istəmirəm + divar daxilində olan kabellərdisə, modemə kimi optik gəlsə də, bir faydası olmayacaq (xüsusən onların modemi ilə). Rəhbərlikləri qərar verir, lakin nəticələr ilə sıravi əməkdaşları qalır üz-üzə və həll yolları tapa bilmirlər". Digər istifadəçi isə belə yazıb: "Biz evdə GPON texnologiyalı interneti neçə vaxtdır ki, işlədirik. Məcbur olaraq binanı GPONlaşdırdılar. Keyfiyyət çox aşağı səviyyədədir. Telefonda danışıq səsləri "exo" ilə gəlir, internet isə tez-tez "itir".

Sual yaranır; fiberoptik, daha sürətli və keyfiyyətli internetə qoşulma məcburi ola bilərmi? Sıravi vətəndaşa mənzilində, adi qaydada, kiçik sürətli (10 manatlıq) internet sərf edirsə, niyə mütləq daha sürətli olduğu iddia edilən və həm də daha baha qiymətə (15 manata) internet xidmətindən istifadəyə niyə məcbur edilməlidir?

**Bu barədə "Şərq"ə danışan hüquqşünas Ələsgər Məmmədli qeyd etdi ki, ölkədə internet xidmətləri hələ də telefon şəbəkəsi üzərindən təqdim olunur, bu da keyfiyyətsizdir:**

- Keyfiyyət qiymətlə uyğunluq təşkil etmir. Fiberoptik internetin ölkə üzrə qurulması, əslində 2015-ci ilədək başa çatmalıydı, lakin gerdüyümüz kimi proses hələ də bitməyib. Bu sahədə monopolist yanaşma mövcuddur. Şirkətlər dövlət nəzarətində olduğundan rəqabət mühitinin formalaşması üçün şərait yoxdur. Əhaliyə qiymət diktəsi edilir. Hesab edirəm ki, qiymət siyasətinə yenidən baxılmalıdır. İlkin mərhələ üçün dotasiyalar tətbiq edilə bilər. Ən azından bəlli bir müddətə. Alternativ qiymətlər də təklif edilməlidir, vətəndaşlara. Gün ərzində bir neçə saat internetdən istifadə edən vətəndaş niyə 15-20 manatlıq internetə qoşulmalıdır? Kim daha sürətli internet istəyirsə, buna ehtiyacı varsa, yüksək məbləğli internet xidməti üçün yüksək məbləğ ödəyəcək. Eyni qiyməti hamıya və hər kəsə tətbiq etmək, istehlakçı hüquqlarına ziddir.

**Məlahət Rzayeva**

# Ankaranın əlində ciddi əsaslar var

## Türkiyə yaxın günlərdə quru antiterror əməliyyatına da başlaya bilər



**Türkiyənin Suriya və İraqın şimalında həyata keçirdiyi "Pençe Kılıç" antiterror əməliyyatı təkcə hava hücumu ilə məhdudlaşmayacaq. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qətər səfərindən geri dönərkən jurnalistlərə müsahibəsində deyib. O qeyd edib ki, bununla bağlı məsləhətləşmələr davam edir: "Bunu asanlıqla deyə bilərəm ki, əvvəla, İraq və Suriyanın şimalındakı bu əməliyyat təsadüfən həyata keçirilən əməliyyat deyil.**

Əvvəl də dediyimiz kimi, əgər kimsə ölkəmiz, torpaqlarımıza təcavüz edirsə, bunun cavabını ona verəcəyik". Ərdoğan əlavə edib ki, o, bu əməliyyatla bağlı Bayden və Putini məlumatlandırmayıb: "Amma həm cənab Bayden, həm də cənab Putin artıq bilirlər ki, biz bu regionda istənilən vaxt bu cür əməliyyatlar edə bilərik". Türkiyə Prezidenti "Pençe Kılıç"ın icrasında 70-ə yaxın döyüş təyyarəsi və PUA-ların iştirak etdiyini də vurğulayıb.

Qeyd edək ki, Türkiyə Suriyanın Tel Rıfat, Ayn əl-Ərəb bölgələrində və İraqın şimalındakı PKK, PYD terrorçularına qarşı "Pençe Kılıç" kod adlı irimiqyaslı hərbi əməliyyatlara başlayıb. Hərəkat İranla sərhəddən Aralıq dənizinədək 1000 kilometr uzunluqda və 200-250 kilometr dərinlikdə silahlı və silahsız PUA-lar, komanda-qərargah təyyarələrinin iştirakı ilə həyata keçirilir. Hərəkatda 50-yə yaxın döyüş təyyarəsinin iştirak etdiyi deyilir. Türk Silahlı Qüvvələri bundan öncə Suriya və İraqda keçirdiyi hərbi əməliyyatlarda olduğu kimi BMT Nizamnaməsinin 51-ci maddəsini əsas götürüb. Həmin maddəyə görə, təkcə Türkiyə deyil, istənilən ölkə öz ərazisinə, sərhədlərinə, suverenliyinə yarana biləcək təhdidlərin qarşısını almaq üçün antiterror əməliyyatı keçirə bilər.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, hazırda keçirilən antiterror əməliyyatları hərbi hava qüvvələrinin iştirakı ilə həyata keçirilsə də, mümkündür ki, yaxın günlər ərzində quru əməliyyatı ilə genişlənə bilər.** Analitikə görə, prinsip etibarilə Türkiyənin quru antiterror əməliyyatları başlaması üçün də əsas var: "PKK, YPG və PYD terrorçuları Türkiyənin Kilis şəhərindəki Öncüpınar sərhəd-keçid məntəqəsi və Qaziantep şəhərinin Karkamış rayonuna raket zərbələri endirib. Ankara bunu əsas göstərərək quru əməliyyatlarına başlaya bilər. Taksimdə baş verən terakt Türkiyəyə şərtləri öz xeyrinə dəyişə bilmə imkanını yaratdı. Ankara başlatdığı "Pəncə-Qılınc" hava hərəkatı və sonrasında başladacağı quru hərəkəti ilə buna nail ola bilər. Birincisi, Türkiyə 30 ildən artıqdır ki, ölkə daxilində və xaricində PKK, YPG, YPD terror təşkilatları ilə mübarizə aparır. Bu mübarizə nəticəsində PKK-ya ölkə daxilində ciddi zərbələr endirilib. Lakin adıçəkilən terror təşkilatları bu gün İraqda, xüsusən də Suriyada xarici qüvvələrin dəstəyi ilə yenidən təşkilatlanır, hətta daha da güclənir. Ankara keçirəcəyi bu əməliyyat ilə PKK, YPG, YPD-nin Şimali İraq və Şimali Suriya qanadlarını, strateji nöqtələrini və hərbi obyektlərini məhv edə bilər. İkincisi, rəsmi Ankara cənub sərhədlərində həm təhlükəsizliyi təmin etmək, həm də suriyalıların geri qaytarılmasını həyata keçirmək üçün 30 kilometrlik təhlükəsiz bölgəni yarada bilər. Türkiyənin keçirdiyi "Pəncə-Qılınc" kod adlı irimiqyaslı hərbi əməliyyatlara ABŞ və Rusiyanın səs çıxarmaması diqqət çəkir. Hətta Rusiyanın nəzarətində olan hava limanlarından biri Türkiyənin hərbi təyyarələri üçün açılıb. Ankaranın əməliyyatına Rusiya və ABŞ-ın səssiz qalmasının siyasi səbəbləri də var. Rusiya hazırkı geosiyasi şərtlərdə Türkiyə ilə uzlaşmağa məcburdur. Xüsusilə də Ukrayna-Rusiya müharibəsi fonunda Ankaranın əli olduqca güclüdür. Kreml indiki məqamda Türkiyə ilə münasibətləri pisləşdirmək istəmir. Buna görə də Ankaranın Suriya və Ankarada keçirdiyi əməliyyatlara səssiz qalmaqla kifayətlənir".

*T.Rzayevin fikrincə, Vaşinqton yaxşı başa düşür ki, indiki məqamda Türkiyəyə etiraz etmək Ankaranın əlini daha da gücləndirəcək:* "Məsələ ondadır ki, Türkiyə tərəfi haqlı olaraq Vaşinqtonu Taksim teraktında günahkar görür. Yəni ABŞ bu teraktı birbaşa törətməsə belə açıqca dəstəklədiyi PKK, YPD törədib. Vaşinqton Rusiya ilə gərginlik fonunda Ankaranı küsdürmək istəmir. Digər bir vacib məqam isə NATO-nun Finlandiya və İsveç üzərindən genişlənmə planı da Türkiyədən asılı olmasıdır. Nəticə etibarı ilə Türkiyə Suriyada və İraqda PKK YPD, YPG terror təşkilatlarına zərbə vurmaq və üçün 30 kilometrlik təhlükəsiz bölgənin yaratmaq üçün tarixi fürsət əldə edib. Türkiyə buna nail olsa 30 illik terrorla mübarizə çərçivəsində tarixi irəliləyiş əldə edəcək".

**İsmayıl Qocayev**

**Prezident İlham Əliyev YAP-ın yaradılmasının 30-cu ildönümü ilə bağlı Bakıda keçirilən tədbirdə Fransa-Ermənistan münasibətlərindən danışıb. Dövlət başçısı çıxışı zamanı bildirib ki, Fransa Ermənistana himayədarlıq edir. İlham Əliyev çıxışında bu iki ölkənin münasibətlərinə zarafatyana reaksiya verib: "Onlar**



# Fransanın ağ yalanlarını dünya qəbul etməyəcək

## Ermənistanın Parisdə at oynatmağı və Fransa siyasətçilərini ələ almağı isə gec-tez iflasa uğrayacaq

**biri-birinə bacı deyirlər. Qardaş da deyə bilərdilər, amma nədənsə, bacı deyirlər".**

Xatırladaq ki, bir müddət öncə Fransa Senatı tərəfindən Azərbaycanın əleyhinə qətnamə qəbul olunub. Bu sənədin Fransada yaşayan erməni lobbisinin fəaliyyətinin bir nümunəsi olduğu isə artıq təsdiqini tapıb.

Fransa Senatı tərəfindən qəbul edilən sənədin heç bir əhəmiyyəti olmadığını deyən millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov "Şərq"ə açıqlamasında vurğulayıb ki, bu bir parça kağız rəsmi Parisin özünü pis vəziyyətdə qoyur və onu vasitəçi rolundan kənarlaşdırır: "Burada söhbət təkcə Fransa Senatı tərəfindən qəbul edilən sənəddən getmir. Ümumi məsələ Fransanın daxilində mövcud olan abhavanın təhlilidir. Çünki onlar erməni lobbisinin və Azərbaycana qarşı işləyən qüvvələrin mənbəyinə çevirilib. Bu gün cənab Prezident İlham Əliyev YAP-ın 30 illiyinə həsr olunmuş tədbirdə də məsələ barəsində qısa, amma düzgün fikir səsləndirdi. Ölkə başçısı zarafatyana şəkildə bildirdi ki, Fransa və Ermənistan özlərini iki qardaş da adlandıra bilərdilər. Lakin iki bacı adlandırırlar.

Məhz bu iki "bacı" belə addımlarla özlərini ifşa edirlər. Xüsusilə rəsmi Parisin Frankofoniya konfransında Azərbaycana qarşı qəbul etmək niyyətində olduğu qətnamə uğursuzluqla nəticələndi. Bu sənəddə bizə qarşı sənədlər və bəndlər var idi. Lakin bunların heç biri həmin təşkilata daxil olan ölkələr tərəfindən qəbul edilmədi. Çünki onlar bu ağ yalana etiraz etdilər. Ermənistanın Parisdə at oynatmağı və Fransa siyasətçilərini ələ almağı isə gec-tez iflasa uğrayacaq. Biz bunun canlı şahidi oluruq.

Hələ onlar bizə qarşı daha çox sənəd qəbul etmək niyyətindədirlər. Amma nə qədər çox qətnamə qəbul etsələr, bir o qədər də özlərini pis vəziyyətə qoyacaqlar. Fransada qəbul olunan sənədin digər ölkələrə təsirinə gəldikdə isə öz maraqlarını üstün tutan hər bir dövlət bu qətnaməyə qarşı çıxacaq. Ona görə ki, Avropa Azərbaycanla əlaqələrə xüsusi diqqət yetirir".

**Nihat Müzəffər**




# AZAL xalqı təngə gətirib

## Ekspert təklif edib ki, hava nəqliyyatı infrastrukturu peşəkar idarəedici şirkətlərin tabeliyinə verilməlidir

**"Azərbaycanda hava nəqliyyatı sahəsində ciddi uğurlar qazanılmayıb. Bu işdə qeyri-şəffaf fəaliyyət göz önündədir. AZAL-ın gəlir və xərclərinin optimallaşdırılması istiqamətində addımlar atılmır".**

**Bunu "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rəşad Həsənov AZAL-da bilet qiymətlərinin yüksək olmasına dair səsləndirilən iddialara münasibət bildirərkən deyib. İqtisadçının qənaətincə, Azərbaycan vətəndaşları bahalı hava nəqliyyatından istifadə etmək məcburiyyətində qalır:** "Azərbaycan turizm məkanı kimi əlçatan deyil. Yalnız Azərbaycan Hava Yollarının (AZAL) modelinə yox, hava nəqliyyatının idarə edilməsinə yeni yanaşma ortaya qoyulmalıdır. Hava nəqliyyatı infrastrukturu hava yolu şirkətinin tabeliyində olmamalıdır.

AZAL həm hava yolu şirkətidir, həm də ölkənin hava nəqliyyatı infrastrukturunu idarə edir. Belə olan halda maraqların toqquşması yaranır. Həmin maraqlar konflikti isə AZAL-ın öz hava yolu şirkəti maraqlarını Azərbaycanın hava məkanında qoruması instinktinin güclənməsi, həmçinin lokosterlərin, güclü rəqiblərin bazara buraxılmaması ilə nəticələnir. Başqa sözlə desək, rəqabət mühitini pozur".

Ekspert təklif edib ki, hava nəqliyyatı infrastrukturu peşəkar idarəedici şirkətlərin tabeliyinə verilməlidir: "Dünyada çoxlu sayda belə şirkətlər var. Türkiyə, Gürcüstan, Qazaxıstan təcrübəsinin Azərbaycana daşınması uğurlu olar. Azərbaycanda mövcud hava limanlarının səmərəli istifadəsi ilə əlaqəli regionlaşma da ortaya qoyulmalıdır. Bakı hava limanından başqa regionlarda yerləşən hava limanları zərərlə işləyirlər. İl ərzində 200 min adam daşımırlar. Gəncə aeroportunun sərnişindaşıma gücü 350 minə yaxındır. Amma 30-40 faizi istifadə edilir. Bu gün hava nəqliyyatı sahəsi nəinki işğaldan azad olunan torpaqlarda, əsas iqtisadiyyatda da səmərəli deyil.

İşğaldan azad olunan ərazilərin hava nəqliyyatı istifadə əmsalının yüksəlməsi uzun müddət tələb edir. Məskunlaşma, biznesin yerləşməsi və s. faktorlar öz yerini tutmalıdır. Əsas iqtisadiyyatda bu problem həllini tapmalıdır".

*Qeyd edək ki, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc parlamentin iclasında AZAL-la bağlı məsələ qaldırıb. Deputat bu qurumun təyyarə biletlərinin qiymətinin baha olmasına diqqət çəkib. Z.Orucun fikrincə, Füzuli, Zəngilan və gələcək Laçın hava limanlarının idarəçiliyini AZAL-a vermək olmaz. Azad torpaqlarda hava limanları təkcə mülki deyil, həm də hərbi və təhlükəsizlik əhəmiyyəti daşıdığı üçün AZAL kompaniyasının hazırkı idarəçilik modeli dəyişməlidir.*

*Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva da AZAL-la bağlı tənqidlərə qoşulduğunu vurğulayıb. Onun sözlərinə görə, bu sahədə məsələlərə daha ciddi nəzarət təmin olunmalıdır.*

**Aygün Tahir**

# Vilayəti açıqlamasında səmimi deyil

## Cənub qonşumuz gündəmi sakitləşdirmək üçün yumşalır

**"İran heç vaxt Azərbaycanı işğal etmək və ya nəzarəti ələ keçirmək niyyətində olmayıb". Bunu İranın Ali dini liderinin beynəlxalq məsələlər üzrə müşaviri, keçmiş xarici işlər naziri Əli Əkbər Vilayəti deyib.**

Vilayəti Azərbaycan xalqının İran tarixindəki əsas rolunu və ölkənin qorunmasında, İranın qüdrətinin və regional əhəmiyyətinin gücləndirilməsində mühüm addımlarını yüksək qiymətləndirib. O, həmçinin İslam Respublikasının Azərbaycana hücum və ya qonşu ölkədə hakimiyyəti ələ keçirməyi planlaşdırdığına dair ittihamları və şayiələri təkzib edib.

Onun sözlərinə görə, İran heç vaxt qonşularına paxıllıq etməyib, əksinə, həmişə onlara diqqət və hər kəslə müsbət münasibət saxlamaq istəyi ilə yanaşıb: "Hər bir azərbaycanlı iranlıdır, hər bir iranlı azərbaycanlıdır. Qeyri-İran pasportu olsa da və ya İrandan kənarda yaşasalar da bu, belədir. Mən də azərbaycanlıyam. Qürur hissi ilə demək istəyirəm ki, digər iranlılar kimi mən də özümü azərbaycanlı hesab edirəm. Mən Əlbərz dağlarının ətəyindən gəlirəm. Mən də digər iranlılar kimi qürurlu İranın hər bir hissəsini ruhumun və qəlbimin bir guşəsi hesab edirəm və hətta onu qorumaq üçün canımı da verəcəm".

**Mövzuya münasibət bildirən hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə bildirib ki, tək İranın deyil, bütün siyasi dairələrin mövcud situasiyalarla bağlı açıqlamalarını ciddiyə alsaq da, tam şəkildə inanmaq lazım deyil:** "Çünki situasiyalar hər zaman eyni qalmır. Bu fonda da dövlətlərin siyasəti məcburi dəyişdirilir və ya yeni formada şaxələndirilir. İranın bir həftə öncəyə qədər Azərbaycanla təhdid dilində danışmasını vəziyyət tələb edirdi. Bu gün isə başqa bir tələb var. Yəni ortaya yaxınlaşma və mülayimləşmə mövqeyi qoyulub. Digər tərəfdən Vilayətinin açıqlamasını səmimi qarşılamaq lazım deyil.



***"Problemləri aradan qaldırdıqdan sonra onlar anti-Azərbaycan siyasətini daha sərt formada davam etdirəcək"***

Ona görə ki, biz müstəqillik qazanan zamanda da, elə bu gün də rəsmi Tehranın əlinə uyğun fürsət düşən kimi anti-Azərbaycan siyasəti yürüdür və bunu irəli müstəviyə daşıyaraq, təhdid dili ilə danışacaq qədər sərt mövqe ortaya qoyur. Bundan sonra isə İranın siyasəti dəyişməyəcək. Yəni rəsmi Bakı ilə Tehranın regional və dünyəvi maraqları ziddiyyət təşkil edir. Bu ziddiyyətlər İrana anti-Azərbaycan siyasətini qorumağa və bizim inkişafımızın qarşısının almaq üçün addımlar atmağa şərait yaradır".

**Ekspert qeyd edib ki, cənub qonşumuz təhdid dili ilə bizi qorxutmağa çalışırdı. Lakin nəticədə Azərbaycan daha böyük addımlar atdı:** "Yəni Fars rejiminin ən böyük qorxusu olan Güney Azərbaycan məsələsi aktuallaşdı. Bu isə bizə zərər vermək istəyən rəsmi Tehran üçün bumeranq rolunu oynadı. İran bu addımlardan sonra başa düşdü ki, onların ordusu və silah bazası böyük ola bilər. Amma hazırkı beynəlxalq və regional vəziyyətdə Bakı ilə birbaşa qarşıdurmaya hazır deyil.

Buna görə də cənub qonşumuz gündəmi sakitləşdirmək üçün addım atır. Bunun isə hesablandığı başqa məqamlar var. Azərbaycanda səslənən fikirlər, cənubdakı soydaşlarımıza böyük ruh yüksəkliyi verir və onların milli duyğuları oyanır. Yəni İranın aylardır, sakitləşdirə bilmədiyi etiraz dalğaları başqa formada daha çox yüksəlməyə başlayır.

Ona görə də Tehran onun üçün ən uyğun məqamın Azərbaycanla normallaşma olduğunu düşünür. Problemləri aradan qaldırdıqdan sonra isə onlar anti-Azərbaycan siyasətini daha sərt formada davam etdirəcək".

**Nihat Müzəffər**

# Tokayevin yenidən prezident seçilməsi sevindiricidir

## Türk dövlətlərinin inteqrasiyası ilə bağlı çox ciddi addımlar atılacaq

**Qazaxıstan Mərkəzi Seçki Komissiyası (MSK) növbədənkənar prezident seçkisinin ilkin nəticəsini açıqlayıb. Məlumata görə, hazırkı dövlət başçısı Qasım-Jomart Tokayev səslərin 81.31 faizini toplayıb. Ona 6 milyon 456 min seçici səs verib. Yeni konstitusiyaya görə, Tokayev yalnız bir dəfə 7 il prezident olacaq. "Ədalətli Qazaxıstan - hamı və hər kəs üçün" şüarı ilə çıxış edən Tokayev dövlət institutlarının yenidən qurulmasına ehtiyac olduğu düşüncəsindədir.**

Böyük ehtimalla prezidentliyinin yeni mərhələsində ölkədə iqtisadi islahatları dərinləşdirməyə çalışacaq, korrupsiya ilə mübarizəni davam etdirəcək. Onu prezident seçilməsi münasibətilə ilk təbrik edən keçmiş dövlət başçısı Nursultan Nazarbayev olub. Nazarbayev Tokayevin qələbəsini tarixi adlandıraraq, xalqın ona inandığını bildirib. O, Tokayevin Qazaxıstan üçün ən kritik anlarda doğru qərar verdiyini vurğulayıb.

Siyasi şərhçi Azər Həsrət "Şərq"ə bildirib ki, Qasım Jomart Tokayevin seçkinin ilkin nəticələrinə görə, Qazaxıstan prezidenti seçilməsi sevindiricidir. Analitik vurğulayıb ki, Qazaxıstan ilk prezident N.Nazarbayevdən sonra Qasım Jomart Tokayevin rəhbərliyi altında türk dövlətləri ilə inteqrasiya istiqamətində çox ciddi addımlar atmağa davam etməkdədir: "Qazaxıstan türk dünyasına töhfələr verməklə dövlət müstəqilliyinin heç nəyə güzəştə gedilməyəcəyini ilk növbədə Rusiyaya göstərmiş oldu. Bu baxımdan Tokayevin yenidən prezident seçilməsi məmnunedicidir. Qazaxıstan-Azərbaycan əlaqələrinin artan xətlə inkişafı bu ölkələrə başçılıq edən şəxslərdən xeyli asılıdır. Necə ki, Azərbaycan Prezidenti İlham Əliyev türk dövlətləri arasında birliyin, bərabərliyin daha da irəli aparılması üçün yorulmadan çalışır, eyni qaydada qardaş Qazaxıstan prezidenti də bu istiqamətdə təşəbbüslər göstərir. Tokayevin rəhbərliyi həm türk birliyi, həm də Azərbaycanla ikili əməkdaşlığın inkişafı üçün vacib məqamdır. Əminik ki, Tokayevin prezidentliyi dönəmində Qazaxıstan öz müstəqilliyini daha da möhkəmləndirəcək. Eyni zamanda Türk



Dövlətləri Təşkilatı çərçivəsində türk dünyasının inteqrasiyasına ciddi töhfələr verəcək. Tokayev kifayət qədər təcrübəli siyasətçi və diplomatdır. O, strateji vizyonu olan önəmli bir liderdir. Hesab edirəm ki, Qazaxıstan seçiciləri ən düzgün seçimi ediblər. Bu seçim digər türk dövlətləri tərəfindən də alqışlanır".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**



# Uşaqlara öz hüquqlarını necə qorumağı təbliğ etməliyik

## Yusif Bəkirov: ”Bu istiqamətdə dövlətin gördüyü işlər qənaətbəxşdir”

**Dünyada çox böyük sürətlə qloballaşma prosesi gedir. Bu, bir tərəfdən elmin inkişafı, kompüter erası ilə xarakterizə olunursa, digər tərəfdən sivilizasiyanın indiki mərhələsində ortaya çıxan çox mühüm dünyəvi problemlərlə əlaqələndirilir. Bəşəriyyətin inkişafı, gələcək taleyi üçün ən mühüm problemlərdən biri uşaqların taleyi ilə bağlıdır. Uşaq hüquqları problemi isə belə bir inkişaf kontekstində böyük əhəmiyyət daşıyır.**

Bu gün respublikamızda uşaq hüquqları beynəlxalq hüquq və ölkə qanunvericiliyi normalarına əsasən qorunur. Azərbaycan dövlətinin yeritdiyi siyasət BMT-nin Uşaq Hüquqları Konvensiyasının tələblərinə tamamilə cavab verir. Onlar daim Azərbaycan dövlətinin himayəsi və qayğısı ilə əhatə olunurlar. Ümidvarıq ki, ölkəmizin iqtisadi imkanları artdıqca cəmiyyətin ən həssas və kövrək təbəqəsi olan uşaqlara da diqqət və qayğı yüksələcəkdir.

Uşaq hüquqlarının pozulması aktual bir mövzu olduğundan uşaqlara öz hüquqlarını necə qorumağı təbliğ etmək lazımdır. Hər bir uşağın müdafiə olunmaq hüququ var. UNICEF Azərbaycanda, xüsusilə inteqrasiyalı sosial xidmətlər, ədliyyəyə çıxış və uşaq hüquqlarının monitorinqi sahələrində uşaqların milli müdafiə sistemlərinin gücləndirilməsi istiqamətində iş aparır. Uşaqların milli müdafiə sistemləri sosial rifah, təhsil və səhiyyə məsələləri ilə məşğul olan təşkilatlardan, habelə risk vəziyyətində olan uşaqlarla bağlı cavab tədbirlərinə məsuliyyət daşıyan hüquq-mühafizə orqanları və strukturlarından ibarətdir. Güclü uşaq müdafiəsi sistemi adətən uşaqların və onların ailələrinin üzləşdiyi çoxsaylı qarşılıqlı çətinliklərin öhdəsindən gəlmək iqtidarındadır.

Uşaq hüquqlarının müdafiəsi, onların layiqli insan kimi yetişməsi, zəruri ehtiyaclarının dolğun şəkildə ödənməsi müstəqilliyin ilk illərindən Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Uşaqlarla bağlı siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildən bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmiş, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, o cümlədən 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub.

1999-cu ildə isə ”Uşaq Hüquqları Konvensiyasına qoşulub.

Qeyd edək ki, 20 noyabr 1989-cu ildə BMT-nin Baş Məclisi tərəfindən qəbul edilmiş ”Uşaq Hüquqları haqqında” Konvensiya uşaq hüquqlarının təmini istiqamətində standartları müəyyən edən və iştirakçı dövlətlərin üzərinə öhdəliklər qoyan mühüm beynəlxalq hüquqi sənəddir.

Bu il həmin Konvensiyanın Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməsinin 30 ili tamam olur.

”Uşaq hüquqları haqqında” Konvensiyanın implementasiyası və BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən dövlətin dövri məruzələri üzrə verilmiş tövsiyələrin icrası məqsədilə ölkədə normativ-hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi, uşaqların müdafiəsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Ölkədə uşaq hüquqlarının müdafiəsi, təşviqi, pozulmasının qarşısının alınması, təmin edilməsi vəziyyətinin öyrənilməsi və pozulmuş hüquqların bərpası Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

Bu baxımdan, Ombudsman tərəfindən hər il olduğu kimi 2022-ci ildə də ”Uşaq Hüquqları haqqında” Konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr-20 noyabr tarixləri ”Uşaq Hüquqları Aylığı” elan edilib.

Aylığın keçirilməsində məqsəd aidiyyəti qurumları cəlb etməklə uşaqlara diqqət və qayğının təşviq edilməsi, onlara qarşı pis rəftarın və zorakılığın qarşısının alınması, bu sahədə məlumatlılığın artırılması, uşaq hüquqlarının səmərəli müdafiəsi və təbliğinə nail olmaqdır.

Hər il 20 oktyabr-20 noyabr tarixlərini əhatə edən aylıq çərçivəsində uşaq hüquqları mövzusunda maarifləndirici tədbir, ”Açıq dərs” və seminarlar təşkil olunur.

Tədbirlərdə şagirdlərə uşaq hüquqlarının yaranma tarixi, milli və beynəlxalq qanunvericilik, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumatlar verilir. Bildirilir ki, ölkə Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda əhalinin müxtəlif qruplarının, o cümlədən də uşaq hüquqlarının müdafiəsi ilə bağlı təsbit olunan müddəalar uğurla həyata keçirilir.

Bundan əlavə, Vətən müharibəsi dövründə Ermənistan tərəfinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində 10-dan çox uşağın həlak olması, 50 nəfərinin yaralanması, bir çox uşağın isə valideynlərini itirmələri barədə məlumat verilir. Qeyd edilir ki, mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil, səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, səhiyyə və digər hüquqlarının pozulmasına gətirib çıxarıb.

*"Bütün dünyada uşaqların hüquqlarının pozulduğu ilə bağlı hallara rast gəlmək olar. Bu, acı olsa da bir həqiqətdir"*

Vurğulanır ki, uşaqlar hərbi münaqişələr zamanı heç bir halda hədəf obyektinə çevrilməməli və müharibənin fəsadlarından əziyyət çəkməməlidirlər. Bildirilir ki, Azərbaycanda uşaqlar dövlətin və cəmiyyətin daim diqqət mərkəzindədir və uşaq problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

**Uşaq Hüquqlarının Müdafiə Liqasının sədri Yusif Bəkirovun sözlərinə görə, bu gün hər bir uşaq öz üzərində dövlət qayğısını hiss edir:** ”Uşaqlara göstərilən diqqət və qayğının artırılması üçün cəmiyyətin hər bir üzvü bütün gücünü səfərbər etməlidir. Dövlətimiz uşaq hüquqlarının qorunması istiqamətində mühüm işlər görür. Lakin hansısa sahədə işlər görülürsə, deməli, ortada müəyyən problemlər də var. Demək olmaz ki, bütün dünyada ”Uşaq Hüquqları Konvensiyası”na qoşulan dövlətlərin hansısa birində hər şey yüksək səviyyədədir. Bu konvensiyaya qoşulan dövlət uşaqların inkişafı, sosial, fiziki və psixoloji müdafiəsi üçün hər bir işi görür. Dövlətimiz də bu sahədə siyasətini davam etdirir”.

Y.Bəkirovun fikrincə, Uşaq Hüquqları konvensiyasına qoşulduğumuzdan bəri dövlətin uşaq hüquqlarının qorunması istiqamətində gördüyü işlər qənaətbəxşdir: ”Dövlətimiz ”Uşaq Hüquqları Konvensiyası”na qoşulduqdan sonra 5 ildən bir hesabatlar yazır. Bu hesabatlar Azərbaycanda uşaqların vəziyyətini şərh edir. 1997-ci ildə ilk hesabatı yazdıq. BMT dövlət hesabatları ilə ictimai təşkilatların hesabatlarını müqayisə edib öz tövsiyələrini verir. Dövlətimiz isə həmin tövsiyələri həyata keçirməlidir. Bu tövsiyəni də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir. Düzdür, uşaqların intihar etməsi, zorakılıq halları ilə qarşılaşması rast gəlinən hadisələrdən biridir. Bu xoşagəlməz məqama bütün dünya ölkələrində rast gəlmək olar. Ona görə də bu problemləri və səhvləri göstərməliyik ki, daha yaxşı nəticələr alınsın. Lakin nə qədər yüksək səviyyədə işlər görülsə də, tam razı qalmaq çətindir. Çünki bütün dünyada uşaqların hüquqlarının pozulduğu ilə bağlı hallara rast gəlmək olar. Bu, acı olsa da bir həqiqətdir”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Beynəlxalq təşkilatlara 400-ə yaxın müraciət ünvanlanıb

## Azərbaycan Ədliyyəsi dövlətimizin və xalqımızın keşiyindədir

**Müasir tariximizin ən böyük hərbi-siyasi hadisəsi olan 44 günlük Vətən müharibəsindəki qələbə dövlətimizin qürurunun və gücünün ifadəsinə çevrilərək, bütün dünyaya xalqımızın öz haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Bu Zəfər Prezident İlham Əliyevin yürütdüyü siyasətin bəhrəsi oldu, onun təntənəsinə çevrildi.**

Prezident İlham Əliyevin yürütdüyü siyasət hələ illər öncədən Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib. Bu siyasət Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının təntənəsini təmin edib, Azərbaycanı qlobal enerji təhlükəsizliyi müzakirələrində söz sahibinə çevirib, ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirib. İlham Əliyev bütün sahələrdə respublikamızın inkişafına nail olmaqla ona Cənubi Qafqazın lider dövləti statusunu qazandırıb. Təsadüfi deyil ki, uzun illərdir ki, regionda Azərbaycanın iştirakı olmadan hər hansı layihənin həyata keçirilməsi mümkünsüzdür.

Bu gün Cənubi Qafqaz regionunun lider ölkəsi olan, dünyada güclü dövlət və etibarlı tərəfdaş kimi tanınan Azərbaycan çoxsaylı nailiyyətlər qazanaraq öz qüdrətini daha da artırır. Təbii ki, möhtəşəm uğurların qazanılmasında bütün sahələri əhatə edən çoxşaxəli islahatların mühüm rolu var. Bu reformalar digər istiqamətlər kimi məhkəmə-hüquq sahəsini və ədliyyə sistemini də geniş əhatə edir. Bunun nəticəsidir ki, 104-cü ildönümünü qeyd etdiyimiz ədliyyə sistemi daim təkmilləşir, müasir çağırışlara tam cavab verir.

Bugünkü gənc müstəqil Azərbaycan Respublikasında cəmiyyət həyatının istənilən sahəsindəki tərəqqiyə nəzər salarkən, mütləq həmin uğurların təməlində ulu öndər Heydər Əliyevin siyasi kursunun prinsiplərini görürük. İslahatlar aparılmış, müasirləşdirilmiş və dünya təcrübəsi əsasında yenidən qurulmuş ədliyyə sistemimiz də məhz öz inkişafına Heydər Əliyev siyasi müdrikliyi sayəsində başlamışdır. Bu bir tarixi faktdır. Ancaq o da faktdır ki, bizim ədliyyə sistemimiz həm ötən əsrin 70-80-ci illərində, həm də ulu öndərin siyasi hakimiyyətə qayıtdığı 1993-cü ilin yayından 2003-cü ilin payızına qədər məhz Heydər Əliyevin qayğısı və diqqəti sayəsində inkişaf etmişdir.

Heydər Əliyev siyasətinin layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyev ədliyyə orqanlarının inkişafına xüsusi diqqət göstərir. Ötən müddətdə görülən işlər bunun bariz nümunəsidir.

Ədliyyə Nazirliyinin fəaliyyətinin normativ-hüquqi əsaslarının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının



Prezidenti İlham Əliyev 2006-cı il 18 aprel tarixində ”Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”ni təsdiq edib. Həmin il avqustun 17-də dövlətimizin başçısının imzaladığı ”Ədliyyə orqanlarının inkişafı haqqında” Fərman isə Azərbaycan ədliyyəsinin fəaliyyətinin təkmilləşdirilməsi işində mühüm əhəmiyyətə malik olmuşdur. Bununla da Ədliyyə Nazirliyinə hüquq-mühafizə orqanı statusu verilmiş, yeni vəzifələr həvalə edilməklə, onun strukturu təkmilləşdirilmişdir. Həmçinin xüsusilə bölgələrdə regional ədliyyə idarələrinin və şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmışdır. Ədliyyə Nazirliyi yanında Hüquq-Tədris Mərkəzinin əsasında Ədliyyə Akademiyasının yaradılması da bu istiqamətdə atılmış mühüm addımlardan biridir. Bu, ədliyyə sahəsində kadr hazırlığı məsələlərinin uğurla həyata keçirilməsinə mühüm töhfələr verir. Ədliyyə Nazirliyi tərəfindən İKT-nin tətbiqi daim diqqətdə saxlanılır və bu sahədə davamlı işlər görülür. Mühüm məqamlardan biri də budur ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir. 2009-cu ildə isə dövlət başçısı tərəfindən ”Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı”nın qəbul olunması ədliyyə və məhkəmə sahəsində islahatların gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Proqram çərçivəsində Azərbaycan ədliyyəsinin dinamik inkişafının təmin olunmasına, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsinə, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılmasına, kadr potensialının, ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş kompleks tədbirlər həyata keçirilir.

Möhtərəm Prezident İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkəmə sistemi daim təkmilləşdirilir, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilir, qanunvericilik və institusional islahatlar aparılır, məhkəmələrin infrastrukturu yüksək statusuna uyğun yaxşılaşdırılır və müasirləşdirilir. Təsadüfi deyil ki, Avropa Şurası Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığı və obyektivliyinə görə fərqləndirərək örnək kimi dəyərləndirib və digər dövlətlərə tövsiyə edib. Həmçinin avropalı ekspertlər ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycanın bir çox Avropa ölkələrinə nümunə olduğunu qeyd edirlər.

Dövlətimizin başçısı tərəfindən penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı imzaladığı Sərəncam da ədliyyə sahəsində islahatların həyata keçirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Ədliyyə Nazirliyinin mühüm sahələrindən olan notariat institutunun inkişafı, notarius işinin şəffaf prosedurlar əsasında formalaşdırılması, xüsusi notariatın və elektron notariatın geniş tətbiqi ədliyyə sisteminə böyük töhfələr verir. Təsadüfi deyil ki, Azərbaycanın notariat sahəsindəki nailiyyətlərinə maraq göstərilərək xarici dövlətlərin notariusları tərəfindən müsbət təcrübəmiz öyrənilir, xarici mütəxəssislərin iştirakı ilə beynəlxalq seminarlar keçirilir. Notariat sahəsində aparılan islahatlar nəticəsində ölkəmizdə beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılıb. Bu institutun inkişafı notariat hərəkətlərinin rəsmiləşdirilməsinə öz töhfəsini verib.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin ekspertiza və elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan baş idarə səlahiyyətli qurumu olan Məhkəmə Ekspertizası Mərkəzində də müasir texnologiyalardan və yeniliklərdən istifadə olunaraq tədqiqatlar aparılır, ekspertiza xidmətinin keyfiyyəti getdikcə daha da yüksəlib. Azərbaycan Respublikası Ədliyyə nazirinin ”Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər barədə” 2012-ci il tarixli əmri ilə Məhkəmə Ekspertizası Mərkəzinin Gəncə, Şəki və Şirvan regional bölmələri, 2019-cu il tarixli əmri ilə Lənkəran regional bölməsi yaradılmışdır. Mərkəzin filiallarının yaradılması hüquq-muhafizə orqanlarının işinə, operativliyin təmin olunmasına, vətəndaşların vaxt və zaman itkisinə müsbət təsirini göstərmişdir.

Bu gün artıq bir əsrdən çox yaşı olan Ədliyyə Nazirliyinin əməkdaşları dövlət başçısının ətrafında sıx birləşərək ölkədə qanunvericiliyin daha da zənginləşdirilməsi, məhkəmə-hüquq sistemində şəffaflığın təmin olunması istiqamətində fəaliyyətlərini daha da gücləndirirlər.

44 günlük Vətən muharibəsində bütün dövlət qurumları ilə yanaşı Ədliyyə Nazirliyi də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə yadda qaldı. Ədliyyə işçiləri ordumuzla həmrəylik nümayiş etdirərək hərbçilərimizə, yaralananlara və şəhid ailələrinə öz dəstəyini əsirgəməyib, Silahlı Qüvvələrə Yardım Fonduna və ”YAŞAT” Fonduna əmək haqlarından könüllü vəsaitlər köçürüblər. Eyni zamanda, nazirliyin tibb xidmətinin həkimləri müharibə dövründə yaralananlara zəruri tibbi yardım göstərib, ədliyyə və məhkəmə orqanlarında qanvermə aksiyaları keçirilib, nazirliyin əməkdaşları döyüşlərdə yaralanaraq hərbi hospitallarda müalicə alan hərbçilərimizə mütəmadi baş çəkib və sovqatlar təqdim ediblər.

Eyni zamanda, Vətən müharibəsi dövründə Ədliyyə Nazirliyi tərəfindən düşmənin işğalçılıq faktları və müharibə cinayətləri ilə bağlı xarici ölkələrin ədliyyə nazirliklərinə və nüfuzlu beynəlxalq təşkilatlara 400-ə yaxın müraciət ünvanlanıb. Dünya ictimaiyyətinin düzgün və dolğun məlumatlandırılması məqsədi daşıyan müraciətlər reaksiyasız qalmayıb. Bəzi dövlətlər münasibət bildirərək bölgəyə humanitar yardım məqsədilə dəstək göstərilməsini, beynəlxalq hüquq çərçivəsində öhdəliklərə hörmət edilməsinə, bütün qanun pozuntularının araşdırılacağına ümidvar olduqlarını bildiriblər.

Nazirliyin saytında yaradılan və daim yenilənərək interaktiv fəaliyyət göstərən, minlərlə istifadəçinin yararlandığı ”Qarabağ Azərbaycandır!” üç dilli elektron məlumat platforması isə ölkəmizin ədalətli mövqeyinin təbliği və geniş yayılmasında əhəmiyyətli rol oynamış və oynamaqdadır.

Ədliyyə naziri, cənab Fikrət Məmmədovun tapşırığı ilə 44 günlük Vətən muharibəsi dövründə nazirliyin bütün qurumlarında gücləndirilmiş iş rejimi həyata keçirildi, hamı bir yumruq kimi birləşərək Vətən uğrunda yorulmadan fəaliyyətə başladı. Ədliyyə orqanlarının bir sıra əməkdaşları da Vətən muharibəsində iştirak etmək üçün cəbhəyə yollandılar. Həmin dövrlərdə əslən Cəbrayıl rayonundan olan Ədliyyə Nazirliyinin İcra Baş idarəsinin əməkdaşı Xəlilov Ruhin Müzəffər oğlu da könüllü olaraq döyüşə getmiş və şəhidlik zirvəsinə yüksəlmişdir. Ədliyyə Nazirliyinin baş idarə səlahiyyətli qurumu olan Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşları da 44 günlük Vətən muharibəsində durmadan fəaliyyət göstərmişdir. Belə ki, Mərkəzimizin ekspertləri hüquq-muhafizə orqanları ilə birgə istifadəsi qadağan olunmuş silahların atıldığı ərazilərə ezam olunub baxışlar keçirmiş, əhaliyə dəymiş zərəri müəyyənləşdirmək üçün hadisə yerlərinə cəlb olunmuş, bir sıra məhkəmə ballistik və trasoloji, mühəndis tikinti-texniki və məhkəmə-əmtəəşünaslıq ekspertizaları təyin edilmiş, tədqiqatlar aparılıb rəylər verilmişdir.

Deyə bilərik ki, Ədliyyə işçiləri bu gün peşə bayramlarını bu sahədə ardıcıl nailiyyətlərin və davamlı inkişafın fonunda qeyd edirlər. 8 noyabr - Zəfər Gününün 22 Noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü ilə eyni aya təsadüf etməsi də bizim üçün qürurverici tarixi hadisədir.

**Əziz Alqayev,**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı**

# Ana dilimiz ulularımızın bizə əmanətidir!



Həmayil Əhmədqızı

**Bəzən uzun illər səni narahat edən, tez-tez qarşılaşdığın problem haqqında düşüncələrini, fikirlərini qələmə almaq istəyirsən, ancaq nədənsə, beyninin vərəqlərindən yazıya köçürə bilmirsən. Nəhayət, birdən elə hadisəylə üzləşirsən, səndən asılı olmadan qələmi əlinə götürürsən.**

Sentyabr ayı idi. Özəl orta məktəbin yaxınlığından keçirdim. Kiçik yaşlı uşaqlar dərsdən çıxırdı. Dünyanın bəlası virus onların əhval-ruhiyyəsinə o qədər də təsir etməmiş, səs-küylərini, sevinclərini əllərindən ala bilməmişdi. Özümdən asılı olmadan bir anlıq ayaq saxladım. Varlığımda qəribə hisslər yarandı. Xəyalən mən də onların sevincinə qoşuldum. Balaca fidanların bəzisi çantalarının ağırlığına baxmayaraq, çiyinlərinə keçirərək valideyninin əlindən tutub şəstlə yeriyir, bəziləri isə çantalarını valideyninə verib, nədənsə, kimdənsə şikayətlənə-şikayətlənə narazı, tənbəl-tənbəl yeriyirdi. Uşaqların çantalarının necə ağır olduğunu görüb, birinci sinfə getdiyimi, rəhmətlik nənəmin mənə bir üzü qırmızı, digər üzü göy rəngdə çit parçadan tikdiyi çantamı xatırladım. Nənəm çantanın qırmızı üzünə həmin göy parçadan balaca cib də tikmişdi. Ora mürəkkəb qabımı qoyardım. Bəzən evə üst-başım, üz-gözüm mürəkkəbə batmış halda dönərdim. Çantamın içərisində bir əlifba kitabı, iki dəftər, bir də qələm olardı. Zaman hər şeyi necə də sürətlə dəyişir, bizə hiss etdirmədən. Hər şeyi dəyişdirən zamanın özündən xəbəri yoxdur, özü də dəyişib, zaman o zaman deyil. Düşünürəm, zamanmı bizi dəyişdirib, bizmi zamanı?! Bu düşüncədə ikən birdən bərabərimdən keçən balacanın yanıqlı-yanıqlı ağladığını gördüm. Anası sakitləşdirməyə çalışsa da, sakitləşmirdi, ağlaya-ağlaya:

- Mən o dildə oxumaq istəmirəm. Mən öz dilimizdə oxumaq istəyirəm. Mən Lalənin oxuduğu məktəbdə oxumaq istəyirəm. O, öz dilimizdə oxuyur.

Anası nə qədər dil tökürdü:

- Bax, görürsən, o gördüyün uşaqların hamısı ingilis dilində, rus dilində oxuyur, heç gör ağlayan var, əksinə, sevinirlər.

- Onlar oxuyur oxusun, mən oxumaq istəmirəm, mən öz dilimizdə oxumaq istəyirəm.

Uşağın ağlamasının səbəbi mənə aydın oldu. Tutuldum. Qəhər məni boğdu. Uşaq yad dildə oxumaq istəmədiyi üçün ağlayırdı. Mən ananın öz doğma dilinə belə yad, ögey münasibətinə görə qəhərlənmişdim. Bir anlıq Ulu öndər Heydər Əliyevin dediyi dəyərli sözləri xatırladım: "Azərbaycanın milli ruhunun yüksəlməsinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Hər yerdə Azərbaycanın dövlət dili, ana dili-Azərbaycan dili hakim olmalıdır". Bu dəyərli fikirlər, yanlış, səhv, qaranlıq düşüncəli insanlar üçün bir işıq, aydınlıqdır.

Özümü toparlayaraq, üzr istəyib müdaxilə etməli oldum:

- Nə üçün uşağın istəyini nəzərə almırsınız? Axı, o, xarici dildə yox, ana dilində oxumaq istəyir.

- O uşaqdır, nəyin yaxşı, nəyin pis olduğunu, gələcəkdə hansı dilin ona lazım olacağını hələ dərk etmir. Vaxt gələcək, ingilis dilində oxuduğu üçün mənə "sağ ol" deyəcək. İndi elə dövrdə yaşayırıq ki, uşaqlarımız ingilis dilini, rus dilini mütləq bilməlidir. Azərbaycan dilində oxusa Biləcəridən o yana gedə bilməyəcək. İnsafən, rus və ingilis bölmələri ilə Azərbaycan bölməsində təhsilin səviyyəsi eynidir?

Təəssüflə üzünə baxdım. Bu əqidənin sahibinə verəcəyim suallara alacağım cavab təxminən mənə aydın olduğu üçün ananın nəyin pis, nəyin yaxşı kəlmələri ürəyimi xəncər kimi deşə-deşə suallarımı ürəyimdə öz-özümə ünvanladım. Xarici dili lazımlı dil kimi öyrəniriksə, bəs doğma ana dilimiz?! Dövlət dilimiz?! Bəyəm Azərbaycan dilində oxuyanlara başqa dili öyrənmək üçün qadağa qoyublar? 4-5 xarici dil bilənlər orta təhsillərini 4-5 dildə alıblar? Necə öyrəniblər? Məqsəd xarici dildə təhsil alıb Biləcəridən o yana getməkdisə, bəs Biləcəridən bu yan?! Bizdən asılı olmayan səbəblərə görə Biləcəridən o yana gedənlərin milli mənəviyyatımıza vurduğu zərbələr bəs deyilmi? Xarici dildə təhsilin səviyyəsinin yüksək olmasını əminliklə söyləyən qadının fikrinin nə dərəcədə doğru, düzgün olduğunu bilmək üçün bu il bəzi özəl məktəblərin buraxılış imtahanlarının nəticəsi ilə maraqlandım. Məlum oldu ki, rus bölməsində imtahanların nəticəsi nəinki üstündür, əksinə, Azərbaycan bölməsinin nəticələrindən qat-qat aşağıdır.

Azərbaycanda yaşayan, işləyən xarici vətəndaşlar üçün xarici dildə məktəb olmalıdır, var da. O məktəblərdə sinifdə 2-3 xarici vətəndaşın övladları oxuyursa, qalanları azərbaycanlıların övladlarıdır. Qonşu dövlətlərdə rus dilində məktəb yoxdur. Düşünürəm, bizim millətimizdə o dilə sevgi, məhəbbət nə vaxt, nə zaman, necə yaranıb? Tarixin səhifələrini dönə-dönə vərəqlədim, ancaq bu sevgini yaradan səbəbləri tapa bilmədim. Ancaq onu öyrəndim ki, bizə olan münasibətdən asılı olmayaraq, biz həmişə doğmaya yad, yada doğma olmuşuq. Bunun ağrısını-acısını çox çəkmişik, çəkə-çəkə də gedirik. O zamana qədər ki, doğmam doğma, yadı yad bilənə kimi. Düşünürəm, doğma ana dilimizə ögey münasibət nədən qaynaqlanır.

Yaxınlığında dayandığım özəl orta məktəbin Azərbaycan bölməsinin vəziyyəti ilə maraqlandım. Məlum oldu ki, bu il məktəbdə Azərbaycan bölməsi yoxdur. Keçən tədris ilində məktəbin rəhbərliyi Azərbaycan bölməsinin təhsil haqqını yarıya endirərək çox çətinliklə bir sinif açsa da, bu il Azərbaycan bölməsinə bir nəfər də müraciət etməyib. Ümumiyyətlə, demək olar ki, özəl məktəblərdə Azərbaycan bölməsinin vəziyyəti ürəkaçan deyil.

Özəl məktəblərlə dövlət məktəblərinin fərqini yaxşı bilirik. Niyə fərqli özəlliyə sahib olan orta məktəblərimizdə Azərbaycan bölməsi yox və ya tamamilə az sayda olsun?! Sanki xarici dil Azərbaycan bölməsinin içərisinə bir qurd kimi düşüb, xımır-xımır yeyərək yox edir. Bu yox olmalar bizi sabah qarşılaşacağımız, bərpası mümkün olmayan nəticələrlə qarşı-qarşıya qoyacaq.

Bəzi insanların düşüncəsində sovet dönəmindən qalma fikir hələ də yaşamaqdadır. Dövlətin idarə olunmasında, dövlət qurumlarında, məsul vəzifələrdə işləmək üçün təhsil rus dilində olmalıdır. Şükürlər olsun, Azərbaycan dünya dövlətləri içərisində öz yeri, öz gücü olan müstəqil bir dövlətdir. Azərbaycanın dövlət dili Konstitusiyada təsdiq olunmuş Azərbaycan dilidir. Azərbaycan vətəndaşının hər birinin vətəndaşlıq borcudur, dövlət dilini bilib, bu dil vasitəsi ilə dövlətimizə, xalqına xidmət etmək.

Bəzən elə məkanda, elə məclislərdə olursan, özlərini ali təbəqənin üzvü hesab edib, ana dilində danışmağı münasib bilməyən, onu ikinci dərəcəli dil hesab edənləri görəndə yenə də rəhmətlik. Ulu öndər Heydər Əliyevin dediyi qiymətli sözləri xatırlayıram: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevirəm. Bu dildə danışmağımla fəxr edirəm".

Ulu öndərin dediyi bu qiymətli fikir mənə vaxtilə eşitdiyim söhbəti xatırlatdı.

Uzun müddət DTK-da (Dövlət Təhlükəsizliyi Komitəsi) çalışmış, sonra məktəbimizdə metodiki birləşmənin sədri işləyən rəhmətlik Ağayev Teymur müəllimin, hər birimiz üçün örnək olan söhbəti yadıma düşdü. Teymur müəllim kimsə nəyisə öyrənəndə, çətin olduğunu bildirəndə şahidi olduğu hadisəni danışardı:

- Mən DTK-da Heydər müəllimlə bərabər işləyirdim. Heydər müəllim işə təzə qəbul olunmuşdu. DTK-da bütün işlər rus dilində aparılırdı. Mühüm bir məsələ ilə əlaqədar təcili iclas keçirilməli, o iclasda Heydər müəllim də çıxış etməli idi. Heydər müəllim məruzəsini tez yazıb, xüsusi şöbəyə təqdim etdi. Məruzə Azərbaycan dilində yazıldığı üçün rus dilinə tərcümə olunmalı idi. Tərcüməçi qız məruzəni götürmək istəyəndə, Heydər müəllim tez masanın üzərindən məruzəsini götürüb:

- Narahat olma, gecə məruzəni tərcümə edib, səhər çatdıracam. Tərcüməçi qız tərəddüd etsə də, razılaşdı. Doğrudan da, Heydər müəllim səhər məruzəsinin tərcüməsini xüsusi şöbəyə təqdim etdi. Qız tərcümə ilə tanış olduqda, təəccüblə Heydər müəllimə baxıb:

- Necə oldu bir gecəyə belə bir mükəmməl tərcümə etdiniz, şəxsən mən bu səviyyədə tərcümə edə bilməzdim.

Heydər müəllim gülümsünərək:

- Mən kökümə bağlı insanam, mənim ana dilim mənim kökümdür. Tərcümənin mükəmməl olmasının əsas səbəbi də budur. Ana dilini mükəmməl bilən insan kökündən qidalanaraq, istədiyi dili asanlıqla öyrənə bilər.

1995-ci ildə ilk milli Konstitusiyamızda Azərbaycan dili Dövlət dili kimi qəbul olunduğu müşavirədə Heydər Əliyevin Azərbaycan dili haqqında söylədiyi dərin, məntiqli, əhatəli çıxışı, çəkdiyi misallar dilçilərimizi, sənətkarlarımızı - hamımızı heyran qoydu. Ulu öndərin bu dəyərli çıxışı onun kökünə, doğma ana dilinə sıx bağlılığının əyani sübutu idi. Məhz bu səbəbdən ana dilinin qrammatikasını, qayda-qanunlarını gözəl bilən, onun zənginliyindən, ahəngdarlığından, söz ehtiyatından məharətlə istifadə edən Heydər Əliyevin natiqlik məharəti, nitq mədəniyyəti hamını heyran qoyurdu. Məktəbli uşaqlarla bərabər, məsul vəzifədə çalışan hər bir kəsə doğma ana dilini mükəmməl bilməsini dönə-dönə tövsiyə edirdi. Dil millətin kimliyi, onun varlığıdır. Düşmən bir milləti məhv etmək üçün onun vətəninə təcavüz edib zəbt edir. Sonra bütün alçaq vasitələrdən istifadə edərək ana dilini sıxıb, əzib, sonra əridib yox edir.

Vaxtilə, finlərin, çexlərin düşmənləri onların vətəninə təcavüz edib zəbt etdikdən sonra bütün alçaq vasitələrdən istifadə edərək onların ana dilində yazılan qiymətli, dəyərli yazıları, sənət əsərlərini yandırıb yox etdilər, lakin ana dilini canından artıq sevən Siellmani kimi milli ruhlu oğulları ana dillərini təcavüzkarların caynağından qoparıb, məhv olmağa qoymadılar. Ana dillərini yaşatdılar. Ana dili əlindən alman millət yox olub, yer üzündən silinir. Düşünürəm, vətənimiz əsrlərlə təcavüzə məruz qalıb əsarətə alınsa da, ana dilimizi analarımızın, nənənlərimizin laylaları, bayatıları, oxşamaları, nağılları təcavüzkarların qarşısında sipər oldu, qorudu, əsarətə düşməyə qoymadılar. Bu günümüzə çatdırdılar. Bu gün dilimiz, şəbəkəsi get-gedə böyüyən sapı özümüzdən olan baltalarla bacara biləcəkmi?!

Uzun illər dilimizi əzmək, yox etmək üçün istər İran Azərbaycanında, istərsə də Sovet Azərbaycanında müxtəlif üsullardan istifadə etdilər. Vaxtilə İran şahı Rza Pəhləvi ana dili uğrunda mübarizəyə qalxan azərbaycanlıların istəyini, arzusunu məhv etmək üçün, hiyləgər plan düşünmüş, azərbaycanlıların fars qızları ilə evlənməsi üçün təlimat vermişdi. Bu üsul Sovet Azərbaycanında da yazılmamış qanunlarla hiyləgərcəsinə icra olunurdu. 1946-cı ildə Stalinlə görüşəndə İranın baş naziri Qəvvam əs-Səltənə deyir: "Azərbaycan dili İran Azərbaycanında yaşayan əhalinin doğma dili deyil, burada yaşayan Səlcuq işğalçılarının dilidir. Azərbaycanlıların öz dili yoxdur".

Dilimizə atılan iftiralara, böhtanlara baxmayaraq, Cənubi Azərbaycanda yaşayan soydaşlarımız ana dilində məktəbləri olmasa belə bütün çətinliklərə, qadağalara baxmayaraq, ana dilimizi yaşadırlar. Anaların laylaları, bayatıları, nağılları ana dilində onlara məktəb oldu. Bu məktəb ana dilimizi yad təsirdən qorudu, əriməyə, yox olmağa imkan vermədi. Heç təsadüfi deyil ki, Azərbaycanın istedadlı şairi əsərlərini əsasən, fars dilində yazan Şəhriyarın ilk Azərbaycan dilində yazdığı "Heydərbabaya salam!" əsəri ana harayının, ana fəryadının nəticəsində yazıldı.

Düşmən milli musiqi alətimiz olan balabana sahiblənmək istəyəndə analarımızın yüz illər öncə qoşduqları bayatısı haray salıb düşmənə layiqli cavabını verdi.

**Əzizim, balabanı**
**Asta çal balabanı**
**Hamının balası gəldi,**
**Bəs mənim balam hanı?**

Deməli, dərdli, qəmli günlərimizdə balaban analarımızın dərdinə şərik olub. Kədərli anlarında qarmonu, saksofonu deyil, milli musiqi alətimiz olan balabanın asta çalınmasını xahiş edib.

Azərbaycan dili öz zənginliyi, ahəngi ilə başqa dillərdən fərqləndiyi kimi, eyni zamanda saflığı ilə, təmizliyi ilə də fərqlənir. Heç kəsin dininə, dilinə, tarixinə, mədəniyyətinə iftira, böhtan atmayıb. Mənəvi təmizliyini həmişə qoruyub, saxlayıb. Məhz bu baxımdan ana dilimiz sevilməyə layiq bir dildir, künc-bucağa sıxışdırılmağa yox. Ana dilimiz ulularımızın bizə əmanətidir. Əmanətə xəyanət həm ulularımızın ruhu qarşısında, həm də Allah qarşısında böyük günahdır. Təəssüflər olsun ki, bizə verilən əmanəti bizdən asılı olan və ya olmayan səbəblər üzündən lazımi səviyyədə qoruyub, saxlaya bilmirik.

Sovet dönəmində orta və ali təhsilini Azərbaycan dilində alan gənclərimizin işə düzəlməsi problem olurdu. Rus dilini bilmədikləri üçün. Dövlət işlərində, dövlət idarələrində işə düzəlmək onlar üçün qeyri-mümkün idi. Halbuki, onların arasında nə qədər savadlı, bacarıqlı, istedadlı gənclərimiz vardı. O gənclərin bir qismi ali təhsilini bitirdikdən sonra rayonlara, kəndlərə geri dönür, ixtisasına uyğun oldu-olmadı işdə çalışır, əksəriyyəti isə Rusiyanın şəhərlərinə üz tuturdu. Ali təhsilli olsalar da, alverdən tutmuş fəhləliyə qədər nə iş oldu çalışırdılar. Bu vəziyyəti görən, azərbaycanlılara xoş münasibət bəsləməyən bədxahlar millətimizə qarşı mənfi rəy formalaşdırmağa çalışaraq adımızın üzərinə alverçi kəlməsi yapışdırdılar. Halbuki, millətimizin sovet dönəmində əvəzsiz xidməti olan Fərman Salmanov, Kərim Kərimov kimi oğulları da vardı.

*(Davamı gələn sayımızda)*

## Dəm qazı iysizdir, hiss edilmir

Qış mövsümü gəldi, ehtiyatlı olun!

*(Əvvəli səh: 8-də)*



*"Qaz cihazlarına kənar müdaxilələr varsa təhlükə hər an yaxalaya bilər"*

**Adətən, dəm qazının atmosferdə konsentrasiyası 0,001 faizdən aşağı olur, lakin şəhər ərazilərində və ya qapalı mühitlərdə bundan yüksək ola bilər.**

Dəm qazı natamam yanma məhsulu olub güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Belə ki, yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur".

Ekspertin sözlərinə görə, qaz cihazlarına kənar müdaxilələr olarsa, qaz cihazlarının avadanlıqları standartlara cavab verməzsə, evə metal borular əvəzinə kapron və digər materiallardan olan borularla qaz çəkilərsə, qaz xəttində hər hansı bir nasazlıq, dəlik və sızma olarsa onda dəm qazı əmələ gəlir: "Bundan başqa, evin bacaları ildə ən azı iki dəfə təmizlənməlidir. Əgər evin bacaları təmizlənməzsə, təbii ki, orada hava ventilyasiyası, sovrulması olmur və yanma prosesini də çətinləşdirir. Belə desək, kömürün və odunun yanmasından belə dəm qazı əmələ gəlir".

**E.Nurəliyevin sözlərinə görə, dəm qazları əsasən hamam otağında və mətbəxdə əmələ gəlir:** "Demək olar ki, dəm qazının 95 faizi hamam otaqlarında əmələ gəlir. Qışda insanların qaza olan tələbatları daha çoxdur. Həmin vaxt da insanlar otaqlarda qapı-pəncərələri bağlı saxlayırlar. Yayda isə qapı-pəncərələr çox vaxt açıq olur və hava ventilyasiya olduğuna görə dəm qazı da demək olar ki, olmur. Hamam otaqlarında ventilyasiya olmalıdır, qapıların aşağı hissəsində isə mütləq dəliklər olmalıdır. Hamam otaqlarına kustar üsulla hazırlanan qızdırıcılar qoyulmamalıdır. Bu, dəm qazının yaranmasına səbəb olur. Əgər insanlar bu standartlara əməl etsələr, dəm qazı riski azalar".

**Şəymən**

**Elan**

Milli Aviasiya Akademiyası Hava Nəqliyyatı fakültəsinin Hava Nəqliyyatının Hərəkətinin Təşkili Mühəndisliyi ixtisasının 2-ci kurs tələbəsi Quliyeva Xədicə Nicat qızına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Yaxın zamanlarda Talış və Suqovuşan kəndlərinin tikintisinə başlanılacaq



Hazırda doqquz avtomobil və iki dəmir yolunun tikintisi davam edir

**Yaxın zamanlarda Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin tikintisinə başlanılması planlaşdırılır.**

Bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin müşaviri Şamxal Muxtarov Bakıda keçirilən "Şəhərlərin və kənd yerlərinin inkişafına innovativ yanaşma: "ağıllı şəhər və kəndlər" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, hazırda doqquz avtomobil və iki dəmir yolunun tikintisi davam edir.

"Həmçinin, iki su elektrik stansiyasının, yeddi yarımstansiyanın, iki su anbarının tikintisi, eləcə də 280 kilometrlik fiberoptik xəttin çəkilməsi davam edir. Eyni zamanda, Ağdam şəhərinin və bir sıra kəndlərin baş planları artıq hazırlanıb. Bu plan çərçivəsində 3 736 yaşayış evinin, dörd məktəbin, iki mərkəzi tibb müəssisəsinin, dörd muzeyin və parkın tikilməsi gözlənilir. Əlbəttə, bu rəqəmlər yekun deyil. Onu da qeyd edim ki, 2025-ci ilədək Kəngərli, Xıdırlı və Sarcalı kəndlərinin tikintisi nəzərdə tutulur", - deyə Ş.Muxtarov bildirib.

## Ronaldo ilə Messinin məşhur şəkli montaj imiş



**Dünya şöhrətli futbolçular Kriştiano Ronaldo ilə Lionel Messinin birgə yer aldıqları şəklin fotoşop olduğu ortaya çıxıb.**

Axşam.az xəbər verir ki, İspaniyanın "Marca" qəzeti özünün yutub kanalında fotonun çəkilmə anlarını yayımlayıb. Görüntülərdə hücumçuların müxtəlif günlərdə çəkilişə gəldiyi və şəklin montaj olduğu əks olunub.

*Qeyd edək ki, sözügedən foto sosial media seqmentində maraqla qarşılanıb və hər iki futbolçunun paylaşımına milyonla bəyənmə gəlib.*




## "Nar"ın eşitmə məhdudiyyətli şəxslər üçün peşə təlimlərinin ilk mərhələsi başa çatıb

**"Nar"ın eşitmə məhdudiyyətli şəxslərə dəstək verilməsi məqsədilə təşkil etdiyi "Təlim Məktəbi" sosial layihəsinin cari il üçün birinci mərhələsi başa çatıb. 3 ay davam edən təlimlərdə manikür ustası sənəti üzrə peşə biliklərinə yiyələnmiş 10 iştirakçıya sertifikatlar təqdim edilib. Təlim müddətində iştirakçılara manikür peşəsinə aid bütün biliklər və dırnaq üzərində dizayn işləri öyrədilib.**

Layihənin əsas məqsədi nitq və eşitmə məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyasına və maliyyə azadlığına dəstək olmaq üçün onları peşə təlimləri ilə təmin etməkdir. Təlimlərin istiqaməti daha çox əmək bazarında tələbat olan sahələr üzrə müəyyənləşdirilir.

"Təlim məktəbi" layihəsinin tərəfdaşı olan "Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abasov layihənin önəmindən danışaraq vurğulayıb: "Bu layihədə tərəfdaş kimi çıxış etmək qürurvericidir, çünki "Təlim Məktəbi" layihəsi eşitmə məhdudiyyətli gənclərin həyatında köklü dəyişikliyə səbəb olur. Təlimdən keçmiş bütün iştirakçılara uğurlar arzu edirəm". "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov isə sözügedən layihənin gənclərin həyatında yeni bir mərhələnin başlanğıcı olduğunu vurğulayıb. "Bu təlimdə əldə etdikləri biliklər iştirakçılara manikür peşəsi üzrə sərbəst işləməyə, hətta öz bizneslərini qurmağa da imkan yaradır. Əsas məqsədimiz bu kəsimdən olan gənclərin monetar sərbəstlik qazanmasına dəstək olmaqdır" - deyə o bildirib.

*Qeyd edək ki, "Nar"ın "Təlim Məktəbi" layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində "KSM üzrə ən yaxşı layihə" nominasiyasında qalib olub. "Nar"ın cəmiyyətin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi digər layihələrlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.*

*"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3349



## Dünyanın ən yaşlı ibtidai sinif şagirdi

99 yaşında dünyasını dəyişib

**Keniyada 12 yaşlı sinif yoldaşları ilə gələn həftə keçiriləcək imtahanlara hazırlaşan 99 yaşlı Priscilla Sitinei səhhətində yaranan problemlər səbəbindən evində dünyasını dəyişib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Britaniyanın işğalı altında olan Keniyada doğulan və ölkəsinin müstəqillik mübarizəsinin şahidi olan 99 yaşlı qadın ötən il YUNESKO-ya müsahibə verib.

Ölkəsindəki gənc anaların məktəbə qayıtmasını istəyən Sitinei ibtidai məktəbə məhz buna görə başladığını bildirib.

Keniyalı qadın məktəbdə oxumayan və təhsil almayan qadınlarla toyuqlar arasında heç bir fərq olmadığını da deyib. Ətrafında "Qoqo" (yerli dildə nənə) kimi tanınan qadın uşaqlıqda öyrənmədiyi savada 92 yaşında nail olduğunu açıqlayıb. Sitineinin hekayəsi, keniyalı qadının Fransaya getdiyi və Brigitte Macron ilə görüşmək fürsəti olduğu fransız filmi "Qoqo"ya da ilham verdi."Ən yaşlı ibtidai məktəb şagirdi" üzrə əvvəlki rekord başqa bir keniyalı Kimani Maruge məxsus idi. 2004-cü ildə 82 yaşında ibtidai məktəbə başlayan Maruge 5 il sonra vəfat edib. Rekordun yenilənməsi üçün Ginnes rəsmiləri ilə danışıqlara başlanılıb.

**Turan**

## Üzünə dəmir parçası saplandı

Eləcə də xəstəxanaya aparıldı



**Türkiyənin Giresun bölgəsində çalışdığı tikintidə yıxılan və üzünə dəmir parçası girən işçinin üzərində əməliyyat aparılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Cəlal Sayar (39) tikintidə dəmirə ilişib.

Üzündə dəmir parçası ilə birlikdə Giresun xəstəxanasına aparılan Sayar ilk müdaxilədən sonra Samsuna göndərilib. Cəlal Sayar Samsun Təhsil və Araşdırma xəstəxanasında əməliyyat olunub.

Üzündən dəmir parçası çıxarılan Sayarın müalicəsi reanimasiya şöbəsində davam edir.

**Turan**







# Gənclərin televiziya izləmə həvəsi 2 qat azalıb

## İnsanlar gün ərzində ortalama 4 saat 47 dəqiqə internetdə "əyləşir"

**Türkiyə RadioTeleviziya Üst Kurulu gənclər arasında diqqət çəkən araşdırma gerçəkləşdirib. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, RTÜK tərəfindən aparılan araşdırmanın nəticələri təhlil edilərkən belə bir tablo görünüb: dünya üzrə televiziya izləmə müddəti orta hesabla 2 saat 54 dəqiqədir.**

Türkiyədə bu müddət əvvəllər 4 saat 33 dəqiqə idisə, hazırda bu göstərici gənclər arasında sadəcə 1 saat 42 dəqiqədir. Gənclərin televiziya izləmə həvəsi 2 qat azalıb. Araşdırma 15-21 yaşlılar arasında aparılıb. Məlum olub ki, bu yaş qrupundakı yeniyetmə və gənclərin gün ərzində internetdən istifadə müddəti orta hesabla 4 saat 37 dəqiqədir. Gənclərin sosial mediadan istifadə və rəqəmsal oyunlar və yazışmalara nə qədər vaxt sərf etdikləri də öyrənilib. Ölkənin müxtəlif bölgələrində 6 min 626 nəfər sorğuya cəlb edilib. Sorğuda iştirak edənlərin 35.6 faizi az, 35 faizi orta, 29.4 faizinin isə yüksək rəqəmsal oxu-yazı səviyyəsində olduğu müəyyənləşib. Rəqəmsal oxu-yazı səviyyəsi qadınlara nisbətən kişilərdə daha yüksəkdir. Sorğuda iştirak edənlərin 37.1 faizində efir asılılığı müəyyən edilib. 15-18 yaşlı respondentlər isə daha az televiziya izləyir. Maraqlıdır ki, aztəminatlı ailələrə mənsub gənclər arasında rəqəmsal dünyaya aludəliyin daha yüksək olduğu aydınlaşıb. Rəqəmsal oxu-yazı qabiliyyəti isə düşükdür. 15-21 yaşarası gənclərin 76.3 faizi televiziya izlədiyini, 23.7 faizi isə izləmədiyini bildirib. Radio dinləyənlərin sayı da kəskin azalıb: gənclərin 66.2 faizi radio dinləmədiyini bildirib. Radio yayımları da cib telefonu üzərindən, ya da avtomobilin radiosunda dinləyirlər. İnternetdən istifadə edənlər isə 92.3 faizdir. Dünya miqyasında internetdən istifadənin ortalama müddəti 6 saat 54 dəqiqədir, Türkiyədə



isə bu müddət 7 saat 57 dəqiqəyə yüksəlib. Gənclər gün ərzində ortalama 4 saat 47 dəqiqə internetdə "əyləşir". Araşdırmada iştirak etmiş gənclərin 94.6 faizinin sosial media hesabı var. Ən çox da mesaj və video izləmə istifadə edilir.

**Məlahət**

## Teylor Svift 6 mükafatı birdən aldı



**Ötən gün "American Music Awards 2022" gecəsi baş tutub.**

**Axşam.az xəbər verir ki, mərasimdə ən yaddaqalan adlardan biri müğənni Teylor Sviftdir. O, gecədə altı mükafata layiq görülüb. İfaçı "İlin ən yaxşı sənətçisi", "Ən yaxşı estrada müğənnisi", "Ən yaxşı ölkə müğənnisi" kimi nominasiyalarda qalib olub.**

**Sənətçinin "Red (Taylor's Version)" albomu eyni janrlarda ən yaxşısı seçilib. Həmçinin, o, "All Too Well: The Short Film"inə görə də "Ən yaxşı video" mükafatını alıb.**

## Aslı Ənvər serialda çəkilməkdən imtina etdi



**Türkiyəli aktrisa Aslı Ənvər "Benim adım Farah" serialında rol almaqdan imtina edib.**

**Axşam.az xəbər verir ki, buna səbəb aktrisanın ana olmağa hazırlaşması olub.Hazırda Ənvərin ekran işindəki tərəf müqabili Fırat Tanışın baş rolları kiminlə bölüşəcəyi bəlli deyil.**

**Xatırladaq ki, aktrisa 9 gün əvvəl sevgilisi, iş adamı Berkin Gökbudak ilə ailə qurub.**

**Qeyd edək ki, layihə məşhur "The cleaning lady" serialı əsasında lentə alınacaq.**

## Eva Mendes Rayan Qoslinqə ərə getdiyini təsdiqlədi



**Aktrisa Eva Mendes aktyor Rayan Qoslinqlə gizli toy etdiyi barədə şayiələri təsdiqləyib.**

**Oxu.az xəbər verir ki, 48 yaşlı kino ulduzu Avstraliya televiziyasının "Today" şousunun qonağı olub. O, söhbət zamanı ölkəyə səfərindən danışıb və təsadüfən Rayanı əri adlandırıb.**

**"Burada hər kəs çox qonaqpərvərdir və ərim Rayan da buradadır. Biz əla vaxt keçiririk", - deyə aktrisa bəyan edib.**

**Qeyd edək ki, Rayan Qoslinq və Eva Mendes 12 ildir birlikdədirlər. Cütlüyün ortaq iki qızı var - 8 yaşlı Esmeralda və 6 yaşlı Amada.**



# Dəm qazı iysizdir, hiss edilmir

## Qış mövsümü gəldi, ehtiyatlı olun!

**Ölkə ərazisində kommunal xidmət idarələri rəsmən qış mövsümünə keçiblər. Qış mövsümünə keçid isə hər il dəm qazı təhlükəsini gündəmə gətirir.**

Soyuq havalarda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması bir çox hallarda dəm qazı təhlükəsi yaradır. Təhlükəsizlik tədbirləri yerinə yetirilmədikdə zəhərlənmə halları qaçılmaz olur.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi (FHN) dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət edib: "Havaların soyuması və qış mövsümünün yaxınlaşması ilə əlaqədar əhalinin təbii qaza olan tələbatının artması fonunda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması dəm qazı təhlükəsini artırır. Fövqəladə Hallar Nazirliyi tərəfindən dəm qazının yaratdığı təhlükənin qarşısını almaq məqsədilə aparılan kütləvi maarifləndirmə işlərinə baxmayaraq, təəssüflə qeyd olunmalıdır ki, hələ də bu təhlükənin törətdiyi faciəli hallarla bağlı məlumatlar daxil olur.

Yuxarıdakıları nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi dəm qazı təhlükəsi ilə üzləşməmək üçün aşağıda göstərilən təhlükəsizlik qaydalarına əməl olunmasının zəruriliyini bir daha xatırladır:

Qaz cihazı saz və standartlara uyğun olmalı, cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı, havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı, hamam otağında ventilyasiya borusu, qapının aşağısında deliklər olmalı, tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Yadda saxlayın! Dəm qazı iysizdir, hiss edilmir!



### *"Qaz cihazlarına kənar müdaxilələr varsa təhlükə hər an yaxalaya bilər"*

Dəm qazından zəhərlənmənin əlamətləri: baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmə baş verdikdə dərhal zərərçəkmişi təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır".

Təhlükəsizlik sahəsi üzrə ekspert Elmar Nurəliyevin isə "Şərq"ə açıqlamasına görə, insanlar bilməlidirlər ki, dəm qazı nədən yaranır. Yanma prosesi düzgün getmədikdə dəm qazı əmələ gəlir. Əgər yanma prosesi düzgün gedərsə, onda dəm qazı əmələ gəlmir. Bunu insanlar mütləq bilməlidir: "Kimyəvi adı karbonmonooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan, qıcıqlandırıcı xüsusiyyətləri olmayan qazdır.

**(Davamı səh: 7-də)**

## "Qurd adam"

"Xəstəliyimə əlac yoxdur"



**Hindistanda dünyada çox nadir rast gəlinən "qurd adam sindromu" hadisəsi yaşanır.**

Ölkənin Ratlam şəhərində yaşayan Lalit Patidarda orta əsrlərdən bəri cəmi 50 nəfərdə rast gəlinən hipertrikoz diaqnozu qoyulub. Altı yaşından bədəni tüklə örtülən Patidarın üzü zamanla görünməz hala gəlib. O, zorakılığa məruz qalmasına baxmayaraq həyata pozitiv baxdığını və uğurlu Youtuber olmaq arzusunda olduğunu bildirib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Patidar teleyi ilə bağlı açıqlama verib: "Mən normal ailədənəm, atam əkinçidir və hazırda orta məktəbin 12-ci sinfində oxuyuram. Boş vaxtlarımda atama əkinçilik işində kömək edirəm. Anlayıram ki, ömrüm boyu bu tüklərlə yaşayacam. Ailəm deyir ki, doğulanda həkimlər məni təlaş ediblər, altı-yeddi yaşıma qədər fərqli adam olduğumu anladım.

Daha sonra bədənimdə heç kimdə olmayan tüklərin uzandığını gördüm. O vaxtdan öyrəndim ki, məndə hipertrikoz adlı bir xəstəlik var. Bu nadirdir və bildiyimə görə, dünyada yalnız əlli insanda təsadüf edir" deyə bildirir.

**Patidar sözünə davam edir:** "Artıq əlac yoxdur. Əgər tüklərin çox uzandığını hiss etsəm, kəsirəm, başqa çarəm yoxdur və müalicənin də olacağına inanmıram".

*17 yaşlı gənci üzən məqam da var. Məktəb yoldaşları ona lağ edirdilər, meymun deyə qışqırırdılar:* "İnsanlar bunun çox qorxulu olduğunu deyirlər, məni ruh adlandıraraq ələ salırlar, bir növ mifik varlıq olduğumu düşünürlər".

**Turan**

## Görmənin pisləşməsi

Ürək xəstəliyinin əsas əlamətlərindəndir



**Görmənin birdən zəifləməsi, pisləşməsi insult və ürək tutmasının siqnallarından ola bilər.**

"Medicina" xəbər verir ki, sarı cismin xüsusi tip degenerasiyası ürək-damar xəstəlikləri ilə bağlıdır.

Bu elmi kəşf imkan verəcək ki, oftalmoloqlar vaxtında gözdə olan dəyişikliyi görüb, insanı infarkt və insultdan qoruya biləcəklər.

Həkim kardioloq Oleq Varfolomeyev bildirib ki, alimlər ilk dəfə sarı cismin konkret forması və onda druzenoidlərin yığılmasına baxaraq, ürək-damar xəstəliklərini təyin etməyi öyrəniblər.

SDD adlı bu yığıntılar yağ lipidləridir, onlar görmə tozunun arxasında toplaşıb, görməni azaldır. Əgər burda belə lipid toplaçması varsa, deməli, ürək damarları da tutulub.

Eləcə də gözlərə qan dövranı ürək damarları tıxananda azalır. Pis qan dövranı bədənin istənilən sahəsini zədələyir, eləcə də görmə torunu. Bu hətta tam korluqla nəticələnə bilər.